

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 28 (24.463)

26 iyul 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Beynəlxalq mediaya düzgün yön verən mühüm platforma – Şuşa Qlobal Media Forumu

## Prezident İlham ƏLİYEV:

*“Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Mən bunu tam səmimiyyətlə deyirəm, sizə xoş söz demək üçün yox. Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur.”*



### *Azərbaycanın qlobal təhlükəsizliyə çağırış tribunası, haqq-ədalət kürsüsü*

Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfərindən sonra bütün sahələrlə yanaşı, media, mətbuat da yeni inkişaf, inteqrasiya mərhələsinə qədəm qoyub. Başqa sözlə, ordumuzla yan-yana milli mətbuatımız, jurnalistikamız da 44 günlük şanlı yoldan keçərək müzəfferliyini ortaya qoyub, daha da möhkəmlənib, yeni, güclü keyfiyyətlər qazanıb. Artıq üçüncü dəfədir, keçirilən Şuşa Qlobal Media Forumu bu baxımdan Azərbaycanın media siyasətinin müasir çağırışlar fonunda gücünün, ölkəmizdə jurnalistikanın inkişafına böyük dəstəyin ifadəsi olmaqla yanaşı, həm də beynəlxalq medianın tərəqqisində, dezinformasiyalara qarşı mübarizədə düzgün istiqamət aşılayan mühüm platforma rolunu oynayır. Hər il bu forumda artan əcnəbi iştirakçı sayı tədbirin mövzusunun, müzakirə predmetinə çevrilən məsələlərin ümumbəşəri xarakter daşıdığını göstərir, qlobal miqyasda ölkəmizin bu sahədəki fəaliyyətinə rəğbətdən, etimaddan xəbər verir. İyulun 19-da işə başlayan III Şuşa Qlobal Media Forumunda jurnalistlərin suallarını cavablandıran zaman Prezident İlham Əliyev forumun işini yüksək qiymətləndirdi, Azərbaycan mediasının nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazandığını vurğuladı. Sitat: ***“Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Mən bunu tam səmimiyyətlə deyirəm, sizə xoş söz demək üçün yox. Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur”.***

Səhifə ⇨ 2

## Azərbaycanın media nümayəndələrinə

Hörmətli media nümayəndələri!
Əziz jurnalistlər!

Sizi əlamətdar yubiley – Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1875-ci il iyulun 22-də böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü – “Əkinçi” qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Həmin dövrdə bütün Qafqazda böyük əks-səda doğuran bu mühüm tarixi hadisə Azərbaycan maarifçilik hərəkatının inkişafına, milli oyanışa, milli özünüdərkin və düşüncə azadlığının formalaşmasına təkan vermiş, mütərəqqi jurnalist, publisist və ziyalı nəslin yetişməsində əhəmiyyətli rol oynamışdır.

Azərbaycan milli mətbuatı bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, zəmanənin qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna xidmətlər göstərmiş, azadlıq və müstəqillik kimi xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermişdir.

Keçən əsrin sonlarında müstəqillik qazanmış Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində cəmiyyət həyatının bütün sahələrində olduğu kimi milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. Həmin dövrdə media sahəsində həyata keçirilmiş köklü islahatların nəticəsi kimi medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmış, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr və senzura aradan qaldırılmışdır. Bütün bunlar Azərbaycan mediasının sürətli inkişafına təkan vermiş və onun yeni mərhələyə qədəm qoymasını təmin etmişdir.

Azərbaycan mətbuatının müstəqilliyi cəmiyyətimizin inkişafının başlıca şərtlərindən biridir. Müstəqil, güclü, günümüzün tələblərinə cavab verən, xalqın maraqlarını rəhbər tutan mətbuatın inkişafı və onun sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması hər zaman dövlətimizin qarşısında duran prioritet vəzifələrdən olmuşdur. Bu istiqamətdə daim sistemli iş aparılmış, ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını, media fəaliyyətinin potensialının və iqtisadi əsaslarının möhkəmləndirilməsini, rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını hədəfləyən normativ-hüquqi baza yaradılmış, informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə əsaslı islahatlar həyata keçirilmişdir.

Bu gün artıq fəxrlə deyə bilərik ki, bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçmişdir. Əlamətdar haldır ki, budəfəki yubileyi milli mətbuatımız artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda qeyd edir.

Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışmışdır. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə Azərbaycan mediası cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında böyük rol oynamış, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirmişdir. Heç şübhəsiz ki, informasiya məkanında qazandığımız zəfər döyüş meydanında qazandığımız və bu il 5-ci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərimizin ayrılmaz parçasıdır.

Torpaqlarımızın işğalı zamanı cəbhə bölgəsində və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərimizdə vəzifə borcunu yerinə yetirərkən şəhid olmuş media nümayəndələrimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm. Onların şücaəti və qəhrəmanlığı heç zaman unudulmayacaq.

Bu gün Azərbaycan Respublikası tam müstəqil xarici siyasət yürüdən, regionun siyasi və iqtisadi mərkəzi statusunu qazanmış, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş güclü dövlətdir. Ölkəmizin mövcud inkişaf dinamikası Azərbaycan mediasının da ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir.

Qarşıdan gələn dövrdə milli mətbuatımızın qlobal informasiya məkanında yerinin daha da möhkəmlənməsini təmin etmək məqsədilə media savadlılığının yüksəldilməsi, ən qabaqcıl kommunikasiya texnologiyalarının tətbiqi, effektiv və çevik kommunikasiyanın həyata keçirilməsi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellektin tətbiqi, dezinformasiya və saxta xəbərlərlə mübarizə kimi amillər aparıcı rol oynayacaqdır.

Dünyada yeni media landşaftının bərqərar olduğu mürəkkəb rəqabət mühitində fəaliyyət göstərən milli mətbuatımızın üzərinə xüsusi məsuliyyət düşür. Belə ki, qlobal informasiya məkanının sürətlə transformasiya olunduğu, beynəlxalq təbliğat fəaliyyətinin ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi, süni intellektin imkanlarının genişləndiyi, hibrid təhdidlərin və “deepfake”lərin geniş vüsət aldığı müasir dövrdə bizim mediamız peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə əməl edərək söz və məlumat azadlığından sui-istifadənin qarşısını qətiyyətlə almalı, Azərbaycanın milli maraqlarını və mənafeyini hər şeydən uca tutmalıdır.

Müasir media mədəniyyətinin formalaşdırılmasında məsuliyyətli, yaradıcı, intellektual və peşəkar jurnalistikanın aparıcı rolu danılmazdır. Əminəm ki, Azərbaycan mediası bundan sonra da cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması, müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Sizi bir daha bu əlamətdar ildönümü münasibətilə ürəkdən təbrik edir, milli mətbuatımızın şanlı ənənələrinin yaşadılması işində uğurlar arzulayıram.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 iyul 2025-ci il*

# Beynəlxalq mediaya düzgün yön verən mühüm platforma – Şuşa Qlobal Media Forumu

*(əvvəli 1-ci səhifədə)*

“Rəqəmsal keçidlər: süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusuna həsr olunan III Şuşa Qlobal Media Forumunda 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələri iştirak edib. Aparılan müzakirələr məhz medianın çağırışlar və imkanlar qarşısında müqavimətinin gücləndirilməsinə, o cümlədən rəqəmsal transformasiyanın təsirinə və müstəqil jurnalistikanın, sülhün, inkişafın, qarşılıqlı anlaşmanın daha da artırılmasına yönəlib. Forumun iştirakçıları arasında əcnəbi media təmsilçiləri ilə yanaşı, Azərbaycanın media nümayəndələri, ekspertlər və rəsmilər də yer alıb. Beynəlxalq media tədbirinə artan marağı göstərən bir faktı diqqətə çəkmək olar ki, ötənilki forumda 50 ölkədən iştirakçı qatılmışdısa, bu il ölkə sayı artıq 52-yə qalxıb. Özlüyündə bu rəqəm dünya media təsisatları, aparıcı jurnalistlər tərəfindən foruma artan marağı göstərir.




Forumun daha böyük əhəmiyyəti isə Prezident İlham Əliyevin müharibə cəbhəsində olduğu kimi, informasiya cəbhəsində də qazanan qalib lider kimi şəxsən mütəmadi şəkildə tədbirdə iştirak etməsi, beynəlxalq və yerli media nümayəndələrinin suallarına ətraflı şərhlər verməsi, eyni zamanda qlobal gündəlikdə duran məsələlərin həllinə dair istiqamətlərin, dezinformasiyalara, dekolonizasiya siyasətinə qarşı mübarizənin önəminin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasıdır. Ötən forumlarda səslənən fikirlər göstərir ki, informasiyanın düzgünlüyü, doğruluğu medianın nüfuzunun, ona olan inamın artmasında mühüm amildir, dezinformasiya isə, sadəcə, ictimai rəyin çaşdırılmasına xidmət etmir, həm də dövlətlərin siyasi qərarlarına təsir göstərir, onları səhv addımlar atmağa, bəzən haqlı əvəzinə haqsız tərəfi dəstəkləməsinə sövq edir. Azərbaycanın artıq leksikondan tamamilə çıxarılmış keçmiş 30 illik münaqişə, 44 günlük Vətən müharibəsi və hazırda da davam edən postmüharibə dövründə bəzi dırnaqarası Qərb dairələrinin sərgilədiyi mövqe buna ən gözəl nümunədir.

### *“Milli maraqların qorunması Azərbaycanın xarici siyasətində fundamental amildir”*

Şuşa Qlobal Media Forumu həm də Azərbaycanın hazırkı həssas dönəmdə beynəlxalq ictimaiyyəti qlobal təhlükəsizliyin təminatına, barışığa, faydalı əməkdaşlığa çağırış tribunası, haqq-ədalət kürsüsüdür. Bundan əvvəlki iki forumun Şuşada keçirilməsi həm hərbi-siyasi, həm də informasiya zəfərimizi nümayiş etdirirdisə, III forumun Xankəndidə təşkili ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpası ilə bərabər informasiya cəbhəsindəki tam qalibiyyətimizi göstərir. Eyni zamanda bu forum respublikamızın müəllifi olduğu, bilavasitə təşəbbüsü ilə reallaşan, reallaşmaqda olan layihələrin mahiyyətini dünyanın diqqət mərkəzinə çatdırmaq baxımından uğurlu təqdimat rolu da oynayır. Hansı ki həmin layihələrlə ölkəmiz Avropa, Asiya coğrafiyasını bir araya gətirir, iqtisadi, mədəni, ticari körpü yaradır. Bunlara Cənub Qaz Dəhlizi, Şimal-Cənub, Şərq-Qərb, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və ən nəhayət, gerçəkliyin bir addımlığında dayanan Zəngəzur dəhlizini nümunə çəkə bilərik.

Zəngəzur dəhlizi nəinki Naxçıvanın Azərbaycanın digər bölgəsi ilə nəqliyyat bağlantısının təminatını hədəfləyir, eləcə də Çinlə, Mərkəzi Asiya dövlətləri, o cümlədən Özbəkistan, Qazaxıstan, Türkmənistan kimi ölkələrin Avropa ticarət bazarına daha tez, rahat çıxışını nəzərdə tutur. Ölkə başçısı 44 günlük Vətən müharibəsinin yekunlarına dair imzalanan üçtərəfli bəyanatdan sonra irəli sürdüyü bu layihənin üzərində daim qətiyyətlə dayanır və qəti şəkildə bu yolun açılacağını bəyan edir. Təsadüfi deyildir ki, məhz bu il iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində, yeni ikitərəfli formatda keçirilən Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Respublikasının Baş nazirinin görüşündə də Zəngəzur dəhlizi əsas müzakirə mövzularından biri oldu. III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev bu barədə suala aydınlıq gətirərkən bir daha dəhlizin önəminə diqqəti çəkərək prosesin bundan sonra da blokladığı təqdirdə Ermənistanın tranzit ölkəyə çevrilmək şansının sıfıra yaxınlaşacağını vurğuladı: ***“Amma təəssüflər olsun ki, son beş ildə Ermənistan tərəfində heç bir iş aparılmayıb, bu məsələ qəsdən gündəmdən çıxarılıb. Amma belə olan halda Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfıra yaxınlaşır. Bu prosesin qarşısını almaqda davam etsələr, düşünürəm ki, özlərini nəinki bu gün düşdükləri nəqliyyat təcridində, həm də müəyyən dərəcədə siyasi təcriddə tapacaqlar”.***

III Şuşa Qlobal Media Forumunda diqqətə çəkilən məsələlərdən biri də məhz enerji təhlükəsizliyi, qaz təchizatı ilə bağlı oldu. Təbii ki, söhbət Avropanın mavi yanacaqla təminatından gedən zaman ilk ağıla gələn məhz Azərbaycanın təşəbbüsü ilə reallaşan, ABŞ-nin güclü dəstəyini alan Cənub Qaz Dəhlizidir. Bəli, XXI əsrin meqa layihəsi sayılan CQD bu gün həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığa dair mühüm siyasi, iqtisadi əhəmiyyət daşıyır, unikal platforma rolunu oynayır. Avropa ölkələrinin ötən dövrdə bu enerji dəhlizinin genişləndirilməsi və layihəyə qoşulmaq təşəbbüsləri isə Azərbaycanın Avropanın enerji təminatındakı artan nüfuzunu bir daha təsdiq edir. Təsadüfi deyil ki, Avropa İttifaqı Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Respublikamız bu gün, ümumilikdə, 12 ölkəyə, o cümlədən də 10 Avropa ölkəsinə mavi yanacaq ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 13 milyard kubmetr təşkil edib. Ümumilikdə, 2024-cü ildə ölkəmiz xarici bazarlara 25 milyard kubmetr qaz ötürüb. Hazırda Cənub Qaz Dəhlizi maksimal həcmdə fəaliyyət göstərir, Prezident İlham Əliyev bu il keçirilən bir neçə beynəlxalq tədbirdə layihənin genişlənməsi üçün əlavə maliyyə vəsaitinə ehtiyac yarandığını ön plana çəkib. III Şuşa Qlobal Media Forumunda bu istiqamətdə ünvanlanan suala aydınlıq gətirmək üçün CQD-nin əhəmiyyətinə toxunan dövlət başçımız bir daha həmin məsələdə Azərbaycanın üzərinə düşən vəzifələri uğurla yerinə yetirdiyini vurğuladı, layihənin genişləndirilməsi üçün əlavə maliyyə cəlbi baxımından Avropa institutlarının müəyyən addımlar atmalı olduğunu diqqətə çatdırdı: ***“Bu gün Cənub Qaz Dəhlizi maksimal həcmdə fəaliyyət göstərir. Yeni məkanlar üçün biz interkonnektorlardan istifadə edirik. Ancaq əsas boru kəməri tam həcmdə doludur. Onu genişləndirmək üçün bizim əlavə maliyyə vəsaitinə ehtiyac var. Ona görə Avropa institutları bunu nəzərə almalıdırlar və siyasətlərində dəyişiklik etməlidirlər ki, biz əlavə vəsait cəlb edə bilək. Bu şəraitdə bu gün bizim üçün artıq tamamlanmış kimi görünən bir məsələ yenidən inkişaf etdirilə bilər”.***

Əvvəlki forumlarda olduğu kimi, III Şuşa Qlobal Media Forumunda da Azərbaycanın milli maraqlarına, regional və qlobal təhlükəsizliyə xidmət edən çoxsaylı məsələlərə, bəşəriyyəti narahat edən məqamlara, bölgələrdə hökm sürən mürəkkəb geosiyasi vəziyyətlərə aydınlıq gətirildi. İştirakçıların ünvanladığı suallar əsasında predmetə çevrilən mövzular sırasında COP29-un əhəmiyyəti, Azərbaycanın yaşıl gündəliyi, eləcə də bölgəyə iqtisadi sülhü gətirən İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyəti, gələcək inkişafı, Azərbaycan-Ermənistan sülh prosesinə gedən yolda atılan addımlar, respublikamızın beynəlxalq təşkilatlarla fəal əməkdaşlığı, Qarabağda və Şərqi Zəngəzurda aparılan infrastruktur quruculuğu, Böyük Qayıdış siyasəti, Azərbaycan-ABŞ münasibətlərinin yeni dönəmi, Azərbaycan-Çin tərəfdaşlığı və digərləri yer aldı. Prezident İlham Əliyev həyata keçirdiyi siyasətin təməl prinsiplərinin xalqına həmişə həqiqəti söyləmək, obyektiv və dürüst olmaq, istənilən şəraitdə beynəlxalq hüquq prinsiplərinə əməl etmək olduğunu vurğuladı. Dövlət başçımız həm Avropa, həm də müsəlman təşkilatlarının üzvü olan, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, ECO və bir çox digərlərinin xətti ilə sammit formatlarında fəal iştirak edən Azərbaycanın nadir ölkələrdən olmasını uğurlu siyasətin mühüm nüansı kimi dəyərləndirdi, milli maraqların müdafiəsinin Azərbaycanın xarici siyasətində fundamental amil olduğunu bütün dünyanın diqqətinə çatdırdı. ***“Əlbəttə ki, hər kəs üçün vacibdir: öz maraqlarını nəzərə alanda qonşunun da maraqlarına baxmaq. Yəni milli maraqların qorunması Azərbaycanın xarici siyasətində fundamental amildir, lakin regional və qlobal kontekstdən ayrılaraq bu amildən güclü sui-istifadə etmək olmaz. Həmişə vəziyyətə baxmaq lazımdır, vəziyyətə qonşunun prizmasından baxmağa çalışın. Onda çox şey aydınlaşır, belə olan halda anlaşılmazlığa səbəb olan bir çox məsələlər kifayət qədər səmərəli nizamlanır”*** – sitatın sonu!

**Nail ƏSGƏROV**



# Biz qurub yaradanıq, biz bu torpaqların əbədi sahibiyik

Xalq-ordu birliyinin "dəmir yumruğ"unun düşmənin başında şimşək kimi çaxıb onu darmadağın etməsi ilə qazandığımız qələbədən sonra dövlətimizin qarşısında dayanan əsas vəzifələrdən biri də illərdir, düşmən tapdağında xarabaya çevrilən yurd-yuvamızın bərpa edilməsi oldu. El-obamızın hər qarışını gülüstana çevirib yenidən öz sakinlərinə qucaq açması həm hər birimizi sevindirdi, həm də dövlətimizin gücünün yenidən nümayişi oldu. Artıq beş ildir ki, davam edən quruculuq işlərini öz yurduna qayıdan insanlar üçün yaradılan şəraiti bütün Azərbaycan xalqı görür və öz dövləti ilə qürur duyur. Biz hər kəsə sübut edirik ki, torpaqlarımızı işğaldan azad etdiyimiz kimi onu qurub yenidən gülüstana çevirməyi də bacarırıq. Həm də çox qısa bir müddət ərzində. Bu, real bir faktdır ki, müharibədən yeni çıxmış bir dövlətin ayağa qalxmağı zaman tələb edir. Amma buna baxmayaraq, beşillik qısa zaman kəsiyində azərbaycanlılar sübut etdi ki, bir ölkənin Vətəninə aşiq olan, onu ürəkdən sevən bir lideri və ona dayaq olan xalqı varsa, o hər sahədə qalibdir. Bəli, biz bunu hər sahədə sübut etdik. Ölkə başçısına inanıb böyük qayıdışa da nail olduq. Artıq beş ildir ki, hər gün yurduna qayıdan Ağdam, Xocalı, Zəngilan, Şuşa sakinlərinin sevincinə şərik olur, ölkə başçısının işğaldan azad edilən ərazilərə etdiyi səfərləri qürurla izləyirik.

Onun bölgəyə etdiyi hər səfər yeni təməlqoyma və açılış mərasimləri ilə yadda qalır. Ötən həftə Ağdam və Xocalı rayonlarında olarkən açılış mərasimlərində iştirak edən ölkə başçısı bir daha hər kəsə biz qurub yaradanıq və bu torpaqların əbədi sahibiyik mesajını verdi.

### *Böyük Qayıdışın ayaq səsi Ağdamda da duyulur*

Torpaqlarımız işğaldan azad edildikdən sonra kənd və şəhərlərimizə vurulan ziyanın miqyasını görmək üçün təkcə Ağdam rayonuna baxmaq kifayət edərdi desək, yanılmarıq. Hər qarışına mina döşənən Ağdamda, demək olar ki, salamat bir tikili görmək mümkün deyildi. Ölkə başçısının da dediyi kimi: ***"Buradan sanki vəhşi bir qəbilə keçmişdi"***. Xarabaya çevrilən Ağdam 29 il "Qafqazın Xirosima"sı adını qazanmışdı. Vətən savaşında bir güllə belə atılmadan azad edilən rayon dövlətimizin diplomatik masadakı qələbəsi idisə, ötən illərdə rayonda aparılan minatəmizləmə və quruculuq işləri dövlətimizin daha böyük bir qələbəsi də hesab edilir. Böyük Qayıdışın ayaq səsləri Ağdamda da eşidilir. Cari ilin may ayında rayonun Kəngərli kəndinə qayıdan sakinlərlə görüşündə ölkə başçısı deyib: ***"Bütün bu əzablı illər arxada qaldı. Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Hər cür şərait var. Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi – hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik".***

Bəli, biz bunun şahidi olduq. Evinə qayıdan hər kəs bunun şahidi oldu. Yuvasına qayıdan insanların işlə təmin olunması üçün mühüm addımların atıldığı Ağdamda Prezident İlham Əliyevin iştirakı ilə "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışı olub. Qeyd edək ki, Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb.

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Bunun nəticəsidir ki, Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkəmizdə mövcud sənaye zonaları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye parkıdır. Parkda ümumi investisiyaların həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Ağdam Sənaye Parkının ərazisinin 70 faizdən çoxu artıq sahibkarların istifadəsinə verilib. "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsinin açılması ilə parkda fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatıb. Bu Sənaye Parkının gələcəkdə yerli sakinlərin məşğulluğunun təmin olunmasında xüsusi yerə sahib olması üçün lazımi işlər görülür.

Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür. İyulun 18-də ölkə başçısı 2021-ci il mayın 28-də təməlini qoyduğu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində inşa edilən hər bir şəraitə malik Ağdam şəhər 1 nömrəli məktəb binasının və Ağdam şəhərində yerləşən 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.



Hər iki təhsil müəssisəsinin binasında gələcəyimiz olan uşaqların rahatlığının təmin olunması, həmçinin təlim-tərbiyə prosesinin yüksək səviyyədə aparılması üçün zəruri şərait yaradılıb.

Ağdam rayonuna səfəri çərçivəsində ölkə başçısı rayonun Qiyaslı kəndindəki tarixi məscid binasının bərpadan sonra açılışında iştirak edib.

Qeyd edək ki, Qiyaslı məscidi də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimizdən idi. Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı mal-qara tövləsi kimi istifadə edilən məscid binası ciddi dağıntılara məruz qalıb. Məscidin bərpası Heydər Əliyev Fondu tərəfindən aparılıb. Qiyaslı məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2001-ci ildən yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısındadır.

## *Xocalı ədaləti gördü və yaşayır*



İşğaldan azad edilən hər qarış torpaq üçün sevincimiz göz yaşına dönüb yanağımıza süzülmüşdü. Hər kənd, hər şəhər azad olunanda ruhumuz göylərə ucalıb Tanrıya minnətdar olmuşdu. Amma Xocalı azad olanda hiss etdiklərimiz yerə-göyə sığmamışdı. Çünki Xocalı bu xalqın qəlbinə nizə kimi batmışdı illərlə. Qəlbimizin qanayan yarası həmin gün sağalmağa başlamışdı "Xocalı azaddır", – deyiləndə. İllərdir, yol gözləyən narahat ruhlar da şad olmuşdu. Artıq iki ildir ki, daha qan ağlamır Xocalı, dirçəlir, gül-çiçəyə bürünür. İgid oğulların azad etdiyi Xocalı qoçaq oğullarının əlləri ilə abadlaşır. Həmin abadlaşan yurd yerlərindən biri olan Xocalının Təzəbinə kəndində iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olan zaman kənd sakini Məhəmməd Fərəcovun evinə baş çəkəndə ev sahibinin gözlərindən oxunan ifadə həm Müzəffər Ali Baş Komandana, həm də əziz şəhidlərin ruhuna minnətdarlıq idi.

Hazırda kəndin müasir sosial infrastrukturunun qurulması istiqamətində işlər davam edir. Belə ki, 15,5 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa olunub, sayğaclaşdırma prosesinə başlanılıb, 11,4 kilometr uzunluğunda təbii qaz xətti çəkilib, 1,2 kilometr uzunluğunda mövcud xətt isə bərpa olunub. Həcmi 300 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 16 kilometr uzunluğunda rabitə xətti çəkilib və abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi üçün şərait yaradılıb. 3100 metr uzunluğunda kənddaxili yollara asfalt örtüyü salınıb, məktəbəqədər və ümumi təhsil müəssisələrinin binalarının təmir-bərpası istiqamətində hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulmuş bina əsaslı təmir edilir. Kənddə sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün bir hektar ərazisi olan müasir istirahət parkı inşa edilir.

Prezident İlham Əliyev iyulun 18-də Xocalının Xanyurdu kəndinə qayıtmış sakinlərlə görüşüb, kənd sakinləri Rasim Cavadovun və Kərəm Abbasovun evlərində olub. Səmimi söhbət zamanı sakinlər ölkə başçısına təşəkkür edib. Dövlət başçımız sakinlərə xoş arzularını çatdıraraq deyib: ***"Burada rahat yaşayın, xoşbəxt yaşayın, siz buna layiqsiniz. Siz uzun illər çətin şəraitdə yaşamısınız – çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə, orada-burada, çox çətin şəraitdə. Amma inamınızı itirməmisiniz. İnanırdınız ki, doğma Vətənə qayıdacaqsınız. O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun".***

Qeyd edək ki, Xanyurdu kəndi Xocalı rayonunun Ballıca kənd inzibati ərazi dairəsinə daxildir. Kənddə 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə, 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb.

Hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumi təhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

Xocalı rayonuna səfəri zamanı Prezident İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib. Rayonun Daşbulaq kəndində inşa olunan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur.

Vətən savaşındakı qələbəmizdən beş il keçməsinə baxmayaraq, biz xalq olaraq birləşib öz gücümüzü bir daha dünyaya nümayiş etdirdik. Şuşa, Laçın, Xocalı və Ağdamda yanan ocaqlar, eşidilən körpə səsi, toy məğarından ucalan musiqi, muğamın Cıdır düzünə yayılan sədası bir daha sübut etdi, bu xalq bir ovuc torpağı tonlarla qızıldan üstün bilir. Və bütün dünya gördü ki, biz bu torpaqların əbədi sahibiyik, biz qurub yaradanıq.

Ramiyə ƏKBƏROVA

# Səlahiyyətli nümayəndə Naxçıvan şəhəri və Culfa rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb



İyulun 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhər ictimaiyyətinin nümayəndələri və ziyalılarla görüşüb.

Səlahiyyətli nümayəndə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər və qarşıda duran məsələlər barədə məlumat verib. 2023-cü ildə Naxçıvan şəhər ictimaiyyəti ilə keçirilən ilk görüşü xatırladan səlahiyyətli nümayəndə vurğulayıb ki, sakinlərin problemləri əsasında görüləcək işlər müəyyənləşdirilib və bu əsasda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı" hazırlanıb. Ölkəmizdə icra olunan ən mühüm irihəcmli dövlət sənədləri sırasında olan Dövlət Proqramında 13 prioritet sahə, o cümlədən yol infrastrukturu, aqrar sektor, su-meliorasiya sistemləri, turizm, enerji, təhsil və digər sferalar üzrə davamlı inkişaf planı hazırlanıb və icra olunur. Dövlət Proqramı uyğun olaraq Azad İqtisadi Zona elan edilən Naxçıvanda Zəngəzur dəhlizinin reallaşması perspektivində nəqliyyat-logistika layihələri reallaşdırılacaq, sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılacaq, mühüm "yaşıl enerji" layihələri icra olunacaq, yeni günəş, külək və istilik elektrik stansiyaları inşa olunacaq, enerji ixracı



potensialı artırılacaq və təmin olunacaq.

Fuad Nəcəfli ictimaiyyət nümayəndələrini Naxçıvan şəhərinin yeni Baş planı layihəsi ilə tanış edib. Qeyd edib ki, şəhərin hazırkı Baş planı 1983-cü ildə aparılıb. Bu da əsaslı dəyişiklikləri şərtləndirir. Böyük Britaniyanın şəhərsalma sahəsində böyük təcrübəyə malik "Chapman Taylor" şirkətinin icra edəcəyi yeni Baş planda şəhərin özünəməxsusluğu qorunub saxlanılmaqla müasir infrastruktur imkanları yaradılacaq və ümumi potensialı genişləndiriləcək.

Ziyalılar görüşdə çıxış edərək Naxçıvan şəhərində yolların yenidən qurulması, infrastruktur quruculuğu və azad sahibkarlığın təmin olunması istiqamətlərində görülən işlərin məmnunluq doğurduğunu, bu işlərin sakinlərdə sabaha böyük ümidlər yaratdığını bildirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.



İyulun 23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Səlahiyyətli nümayəndə qeyd edib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf layihələri Culfa rayonunda da uğurla icra olunur. Ötən dövrdə rayonda yol infrastrukturunun yenilənməsi istiqamətində layihələr reallaşdırılıb və bu sahədə işlər növbəti mərhələdə də davam etdiriləcək, məntəqələrarası və kənddaxili yollar yenidən qurulacaq.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçiriləcək layihələr barədə məlumat verən səlahiyyətli nümayəndə Culfa şəhərinin yeni Baş planının hazırlandığını diqqətə çatdırıb.

Görüşdə sakinlərin problem və təklifləri dinlənilib, məşğulluq, su, yol infrastrukturu, yaşıllaşdırma, ətraf mühitin mühafizəsi və digər sahələrlə bağlı mövcud çatışmazlıqlar müzakirə edilib.

# Səlahiyyətli nümayəndə Türkiyənin ölkəmizdəki səfirini qəbul edib



İyulun 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Naxçıvanın bu münasibətlərin inkişafında mühüm əhəmiyyətə malik olduğu vurğulanıb. Xüsusilə ticarət və investisiya qoyuluşu sahələrində böyük perspektivlərin olduğu bildirilib, türkiyəli iş adamlarının bu sahələrdə fəal işbirliyinin vacibliyi diqqətə çatdırılıb.

Söhbət zamanı digər istiqamətlərdə də perspektiv imkanlar müzakirə edilib.



Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya görüşdə iştirak edib.

# Naxçıvanda "Geomining – 2025, Beynəlxalq Geologiya-Mədənçilik Forumu" keçirilib





İyulun 25-də Naxçıvanda "Geomining – 2025, Beynəlxalq Geologiya-Mədənçilik Forumu" keçirilib.

Forum iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.

Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

"Naxçıvan Saray"da davam edən forumda əvvəlcə Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan filiz və qeyri-filiz faydalı qazıntı yataqlarından götürülmüş süxur, mineral resurslar və tikinti materialları nümunələri, eləcə də diyarımızın təbiət zənginliklərini özündə əks etdirən rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forum iştirakçılarını salamlayaraq bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikanın iqtisadi və ekoloji tarazlığının təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Bu proqramda ətraf mühitin mühafizəsi, təbii sərvətlərin səmərəli istifadəsi və geoloji tədqiqatların müasir texnologiyalar əsasında aparılması əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu prinsip geologiya və mədənçilik sahəsində həyata keçirilən hər bir layihədə rəhbər tutulur.



Fuad Nəcəfli diqqətə çatdırıb ki, muxtar respublikada son iki il ərzində qeyri-filiz və inşaat materialları yataqlarının axtarış, təftiş və qiymətləndirilməsi, yeraltı suların monitorinqi, qara, əlvan və nəcib metalların axtarışı, yenidən qiymətləndirilməsi üzrə çöl və kameral işlər görülüb, 55 yataqda təftiş və yenidən qiymətləndirmə işləri aparılıb, 6 yeni yataq kəşf edilib. Çöl materialları əsasında 298 mineral su bulağının təftişi aparılıb, 14 mineral bulaq investisiya üçün təklif olunub. Bu istiqamətdə işlər davam etdirilir.

ardı 5-ci səhifədə




Həmçinin filiz faydalı qazıntı yataqlarının axtarış-təftişi və ehtiyatlarının qiymətləndirilməsi layihəsinə müvafiq olaraq Ağdərə-Nəsirvaz filizləşmə sahəsində layihə üzrə nəzərdə tutulmuş bütün işlər icra olunub, Babək rayonu ərazisindəki Xalxal sahəsində cari ildə çöl geoloji kəşfiyyat işlərinə başlanılıb.

Muxtar respublika ərazisində ekzogen geoloji proseslərin monitorinqinin təşkili və aparılması işlərinin də davam etdirildiyini diqqətə çatdıran səlahiyyətli nümayəndə qeyd edib ki, ekzogen geoloji proseslərin fəal inkişaf etdiyi sahələrdə yoxlama-təftiş marşrutları, topogeodeziya işləri kompleks şəkildə yerinə yetirilib. "Parağaçay", "Qapıcıq" molibden və "Gümüşlü" polimetal yataqlarında beynəlxalq standartlara uyğun geoloji qiymətləndirmə işlərinin həyata keçirilməsi də Dövlət Proqramının əsas istiqamətlərindən biridir. Muxtar respublika ərazisində ilk dəfə olaraq 2023-cü il 7 iyul tarixdən etibarən 11 qeyri-filiz faydalı qazıntı yatağı üzrə 65 hektar sahə auksiona çıxarılıb, təqribən, 1 milyon manata yaxın vəsait büdcəyə daxil olub.

Forumu geologiya və mədənçilik sahəsində dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin, alimlərin və dövlət qurumlarının nümayəndələrinin bir araya gəldiyi mühüm bir platforma kimi dəyərləndirən səlahiyyətli nümayəndə Fuad Nəcəfli vurğulayıb ki, burada müzakirə ediləcək məsələlər təkcə Azərbaycanın deyil, həm də regionun və bütövlükdə qlobal mədənçilik sektorunun gələcək inkişaf perspektivlərinə yönəlib. Beynəlxalq qiymətləndiricilərin dəvət olunmasında əsas məqsəd filiz yataqlarının geoloji potensialının obyektiv və beynəlxalq qəbul olunmuş metodologiyalara əsaslanaraq qiymətləndirilməsi, yüksək dəqiqlikli geoloji məlumat bazasının formalaşdırılması və investisiya üçün açılmasıdır.




















Beynəlxalq Forumda Türkiyə Respublikasının energetika və təbii sərvətlər nazirinin müavini Abdullah Tancan, Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, Geologiya-mineralogiya elmləri doktoru Abdurazak Mirzayev, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "Azərbaycan İnterneyşnl Maynınq Kompani Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Rza Vəziri, Türkiyə Respublikası Energetika və Təbii Sərvətlər Nazirliyi Mədən tədqiqi və axtarış baş idarəsinin baş direktoru Vedat Yanık çıxış ediblər. Çıxışlarda forumun Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyətinə toxunularaq bildirilib ki, bura Azərbaycanın ən zəngin geoloji strukturuna malik bölgələrindən biridir. Türkiyə, Azərbaycan, o cümlədən Naxçıvan dünyanın əsas metallogenik qurşaqlarından biri olan Alp-Himalay Orogenik qurşağında yerləşir. Bu kəmər zəngin faydalı qazıntı yataqları ilə seçilir və aparılan kəşfiyyat işləri nəticəsində yeni yataqların aşkarlanması təəccüblü deyil. Birgə səylər hər iki qardaş ölkə üçün olduqca mühüm nəticələr verəcək. Bu prosesdə,şübhəsiz, ən vacib addım Naxçıvanda həyata keçiriləcək layihə olacaq.








Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev Naxçıvan Muxtar Respublikasında geoloji kəşfiyyat və dağ-mədən sahəsində görülmüş işlər barədə məlumat verib.

Beynəlxalq forum mövzuya dair panel müzakirələrlə öz işini davam etdirib. Panel müzakirələrdə Azərbaycan, Türkiyə və Özbəkistan təmsilçiləri geoloji axtarış və mədənçilik sahəsində yeni innovativ metodlar, əldə olunan nəticələr, eləcə də birgə atılacaq addımlarla bağlı perspektiv imkanlar müzakirə edilib, forum iştirakçılarının sualları cavablandırılıb.

Sonda Naxçıvanın faydalı qazıntı süxurlarından hazırlanmış xatirə hədiyyələri təqdim edilib.

## Naxçıvan Muxtar Respublikasının media nümayəndələrinin təltif edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında media sahəsində xüsusi xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar jurnalist" fəxri adı verilsin:

Əzimova Sara Nurəddin qızı
Mirzəyeva Məhəbbət Bədəl qızı
Şirəliyeva Şəhla Kifayət qızı.

2. Naxçıvan Muxtar Respublikasında media sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə**

Babayev Məmməd İlqar oğlu
Hüseynov Rövşən Qurbanəli oğlu
Quliyev Nicat Vəli oğlu
Məhərrəmov Aqşin Məhərrəm oğlu
Məhərrəmov Cəmil İldırım oğlu
Məmiyev Röyal Məhərrəm oğlu
Məmmədov Ceyhun Eyvaz oğlu
Mirzəyeva Sona Rövşən qızı
Rəsulova Ruhiyyə Hacı qızı
Talıbova Səadət Mənsim qızı

**"Rəşadətli əməyə görə" nişanı ilə**

Balayeva Çinarə İsa qızı
Mahmudova Kifayət Namik qızı
Məmmədov Novruz Namidər oğlu
Nur Günel Alməmməd qızı
Tahirli Rəmzi Surxay oğlu
Xudiyev Əli Rza oğlu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 21 iyul 2025-ci il*

# "Şərq qapısı" qəzetinin kollektivi Heydər Əliyev Muzeyini ziyarət edib



22 iyul təkcə bizim peşə bayramımız deyil, həm də Ulu Öndərin ideyaları ilə möhkəmlənən müstəqil Azərbaycanın dönməz yolunun başlanğıcıdır. Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə "Şərq qapısı" qəzetinin kollektivi olaraq Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət edib.

Qeyd edək ki, 22 iyul yalnız Azərbaycan mətbuatının doğum günü deyil, həm də xalqımızın qurtuluş yolunun başlandığı bir dövrü xatırladır. 1990-cı il iyulun 22-də Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişi ilə təkcə blokadada olan bir diyarın deyil, bütöv Azərbaycanın taleyi dəyişdi.

Naxçıvan xalqının böyük inamla bağrına basdığı bu qayıdış dövlətçiliyimizin, milli həmrəyliyimizin və gələcək qələbələrimizin təməlini qoydu. O gün Naxçıvanda doğan günəş – Heydər Əliyev günəşi bütün Azərbaycanı işıqlandırdı.



Bu gün Heydər Əliyev Muzeyində nümayiş olunan eksponatlar sırasında "Şərq qapısı" qəzetinin materialları da yer alıb. Bir daha o tarixi günlərə nəzər saldıq. "Şərq qapısı" qəzetinin materiallarının Heydər Əliyev Muzeyində nümayiş etdirilməsi kollektivimiz üçün böyük bir fəxr mənbəyidir.

"Şərq qapısı" qəzeti Ümummilli Liderin Naxçıvanda rəhbərliyi dövründə milli maraqların müdafiəsində mühüm tribuna kimi çıxış edib, onun siyasi baxışlarının cəmiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayıb.

# Naxçıvanda ilk “Əkinçi”lər və “Əkinçi”lik



**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın prezidenti, akademik*

*Məlum olduğu kimi, dünya maarifçilik hərəkatı dörd mühüm dayaq üzərində qurulmuşdur: məktəb, ədəbiyyat, teatr və mətbuat. Maarifçilik hərəkatının bu mühüm dayaqları yazıçı və şairlər, maarif fədailəri teatr həvəskarları üçün mənsub olduqları xalqları cəhalət və fanatizmdən, nadanlıq və gerilikdən xilas etmək, ölkənin ictimai-mədəni tərəqqisinə, elmi-texniki inkişafa çatdırmaq yollarında əsas istinad mənbələrindən biri olmuşdur. Əlbəttə ki, maarifçilik hərəkatının inkişafı baxımından məktəbin rolu digər faktorlarla müqayisədə çox böyük əhəmiyyətə və geniş təsir gücünə malikdir. Əvvəla, ona görə ki, cəhalət və nadanlığa qarşı mübarizə üçün zəruri olan maarifçi dünyagörüş, ilk növbədə, məktəbdə formalaşır. Təsadüfi deyildir ki, böyük Azərbaycan maarifçilərindən biri olan Naxçıvandakı “Tərbiyə” məktəbinin müdiri, tanınmış maarifçi şair Məhəmməd Tağı Sidqi (1854-1903) bəyan etmişdir ki, “Elm və ədəb bir xəzinəyə bənzər ki, onun açarı məktəbdir. Məktəb cəhalət dərdinin dərmanıdır, mərifət bağının xiyabanıdır”. İkincisi isə maarifçiliyin teatr və mətbuat kimi əsas atributlarının meydana çıxması, formalaşması və inkişafı üçün də məktəb əsas hərəkətverici qüvvə funksiyasını həyata keçirmişdir. Hətta ədəbiyyatın da inkişafında, xüsusən maarifçi ədəbiyyatın formalaşmasında məktəb faktoru ön mövqedədir.*

Azərbaycan ədəbiyyatı yalnız XIX əsrdə dünyəvi məktəblərin yaradılması və maarifçilik ideyalarının meydana çıxması və inkişaf etməsi ilə ümumbəşəri, ümumtürk, ümummüsəlman kontekstindən çıxaraq mənsub olduğu xalqın və ölkənin inkişafına xidmət edən ədəbiyyata çevrilmişdir. XVIII əsrdə Molla Pənah Vaqifin yaradıcılığı ilə başlanan bu proses XIX əsrdə Mirzə Fətəli Axundzadənin əsərləri ilə özünün zirvəsinə çatmışdır. Azərbaycan peşəkar teatrı da 1873-cü ildə Bakı Realnı Məktəbinin müəllimi Həsən bəy Zərdabinin və onun şagirdlərinin ifasında məktəbin bazasında meydana çıxmışdı. Milli mətbuatımızın yaradıcısı olan Həsən bəy Zərdabinin də 22 iyul 1875-ci ildə “Əkinçi” qəzetini çap etməkdə əsas məqsədi məktəb vasitəsilə elmi təbliğ etməklə xalqın milli şüurunu oyatmaq; ictimai-mədəni tərəqqiyə nail olmaqdan ibarət idi.

Həsən bəy Zərdabi “Əkinçi” qəzetini 1875-1877-ci illərdə nəşr etməklə Azərbaycan xalqının maariflənməsinə və mənəvi təkamülünə bir ordudan çox xidmət göstərmişdir. Məhz “Əkinçi” qəzeti vasitəsilə Azərbaycanda elm, məktəb, təhsil, kitabxana, dərslik kimi maarifçilik üçün zəruri olan faktorlar gündəmə gəlmişdir. Ölkəmizdə maarifçiliyin ideyadan maarifçilik hərəkatına çevrilməsində “Əkinçi” qəzeti mühüm rol oynamışdır. Bu mənada, “Əkinçi”lik yalnız qəzetçilik deyil, daha çox maarifçilik və ictimai-mədəni inkişaf mənalarını ifadə etmişdir. Köhnəliklə, geriliklə, fanatizm və cəhalətlə, nadanlıqla mübarizə ideyalarının həyata keçirilməsi, elmə və məktəbə çağırış “Əkinçi”lik deməkdir.

Azərbaycanın ilk milli mətbuat orqanı olan “Əkinçi” qəzetinin müəlliflər heyətində qəzetin redaktoru Həsən bəy Zərdabidən başqa Mirzə Fətəli Axundzadə, Əsgər ağa Adıgözəlov Gorani, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani kimi dövrünün ən görkəmli yazıçı və şairləri, Qafqazın Şeyxülislamı Axund Əhməd Hüseynzadə təmsil olunmuşlar. Bundan başqa, Təbrizdən Ələkbər Elçizadə, Dərbənddən Əlməmmədi Abdullazadə Dərbəndi, Səlyandan Məhəmmədəli İsna Əşəriyi-Səlyani, Şuşadan Mirzə Həsən Hadi Qarabağı, Rəştdən Möhsün Badkubeyi, Şirvandan Beyadigari, Əlizadə Şirvani, İrəvandan Seyid Rza Əmirzadə, Məhəmmədəli bəy Vəliyev və başqaları açıq və gizli imzalarla məqalələr və xəbərlərlə çıxış etmişlər. “Əkinçi”nin müəlliflər heyətində imzasız çıxış edən şəxslər də olmuşdur ki, onların sıralarında da Azərbaycanın ayrı-ayrı bölgələrindən olan maarifçi ziyalıların adları vardır. Bu baxımdan, “Əkinçi” ilə Naxçıvandan olan ziyalıların əlaqələrini müəyyən etmək, “Əkinçi”nin Naxçıvana gəlib-gəlməməsi məsələlərini aydınlaşdırmağa ehtiyac vardır. Vaxtilə böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin müasirləri ilə əlaqədar tədqiqatlar apararkən biz bu sualara cavab tapmağa çalışmışdıq. Müxtəlif mənbələrdən Naxçıvandan iki nəfərin: İsa Sultan Şahtaxtinski və Əliqulu Novruzovun “Əkinçi” qəzeti ilə əlaqələri haqqında müəyyən materiallar və informasiyalar əldə edə bilmişdik. Həm İsa Sultan Şahtaxtinski və həm də Əliqulu Novruzov rəsmi dövlət məmuru olduqları üçün “Əkinçi” qəzetinə açıq imza ilə yazmaqdan çəkinmiş, qəzetə imzasız xəbərlər və digər materiallar göndərmişlər. “Əkinçi” qəzetində Naxçıvan diyarı ilə bağlı xəbərlərin və məlumatların əksəriyyəti hüquq sahəsində çalışan Əliqulu Novruzov tərəfindən göndərilmişdir. Əliqulu Novruzovun da səyləri nəticəsində İrəvan Quberniyası və Naxçıvan mahalı üzrə “Əkinçi” qəzetinə cəmi 11 nəfər abunəçi olmuşdur. Qəzetin 1875-ci ildə Zaqafqaziya və Dağıstan, hətta Cənubi Azərbaycan üzrə cəmi 119 abunəçisinin olduğunu nəzərə alsaq, XIX əsrin yetmişinci illəri üçün İrəvanda və Naxçıvanda 11 nəfərin “Əkinçi” qəzetini abunə yolu ilə alıb oxuması məqbul bir statistika hesab edilə bilər.

“Əkinçi” qəzeti ilə əlaqəsi olan Naxçıvan ziyalılarından biri də İsa Sultan Şahtaxtinski idi. Sankt-Peterburq Əkinçilik İnstitutunda ali təhsil almış, İsveçrə Surix Politexnik İnstitutunda dissertasiya müdafiə edərək kənd təsərrüfatı üzrə elmi dərəcə qazanmış İsa Sultan Şahtaxtinski (1851-1894) 1876-cı ildə Həsən bəy Zərdabiyə göndərdiyi məktubda “Əkinçi” qəzetinə xarici siyasətə dair materiallar göndərmək sahəsində öz xidmətini təklif etmişdir. Ehtimal ki, “Əkinçi” qəzetindəki Avropa həyatına dair informasiyaların bir çoxu İsa Sultan Şahtaxtinski tərəfindən göndərilmişdir. Bu Avropayönlü maarifçilik xətti tutan Həsən bəy Zərdabinin və “Əkinçi” qəzetinin fəaliyyət istiqamətinə və hədəflərinə uyğun gələn bir mövqe idi. “Əkinçi” qəzeti bir qayda olaraq xəbərləri imzasız çap etdiyi üçün İsa Sultan Şahtaxtinskinin göndərdiyi məlumatlar “Xariciyyə xəbərləri” rubrikası ilə çap olunduğuna görə imzaya ehtiyac olmamışdır.

Tədqiqatlar göstərir ki, XIX əsrin səksəndoxsanıncı illərində Naxçıvanda dünyanın müxtəlif ölkələrində çıxan qəzet və jurnallar alınıb oxunmuş, müzakirə edilmişdir. Bu mətbuat orqanlarının sırasında Rusiyada çap edilən “Novoye vremya” qəzeti, “Novoye obrazovaniye” jurnalını, Tiflisdə nəşr olunan “Qafqaz” qəzetini, Baxçasarayda İsmayıl bəy Qaspıralının “Tərcüman” qəzetini, Hindistanın Kəlküttə şəhərindən “Həblül-mətn” qəzetini və bir neçə İran ruznamələrini göstərmək olar. Naxçıvanda həmin dövrdə fəaliyyət göstərən “Müsəlman Şiə Dram İncəsənəti Cəmiyyəti”, “Ziyalı Məclisi” kimi cəmiyyətlərdə, yeni açılmış dünyəvi məktəblərdə, xüsusən Məhəmməd Tağı Sidqinin Naxçıvan şəhərində təsis etdiyi məşhur “Tərbiyə” məktəbində qəzetlərin oxunub müzakirə edilməsi yolu ilə dünyada baş verən yeniliklər diqqət mərkəzinə çəkilmiş, onlardan yerli şəraitə uyğun gələnlərinin tətbiq olunması üçün yollar axtarılmışdır.

Eyni zamanda yaxında adları çəkilən qəzet və jurnalların Naxçıvandan olan təmsilçiləri və əməkdaşları kimi fəaliyyət göstərən maarifçi ziyalılar var idi. Məhəmməd ağa Şahtaxtlı 1875-1880-ci illərdə “Qafqaz” qəzetinin, XX əsrin əvvəllərində “Novoye vremya” qəzetinin rəsmi əməkdaşı kimi Naxçıvan ziyalılarını həmin qəzetlə əlaqələndirmişdir. Eynəli bəy Sultanov 1891-ci ildən “Novoye obrazovaniye” qəzetində çoxsaylı məqalələrlə çıxış etmiş, 1905-1908-ci ildən Bakıda çıxan “Kaspi” qəzetinin İrəvan və Naxçıvan üzrə müxbiri kimi fəaliyyət göstərmiş, 1908-ci ildən “Zaqafqaziye” qəzetinin “Müsəlman həyatı” şöbəsinin müdiri olaraq mətbuat sahəsindəki işini davam etdirmişdir. Eynəli bəy Sultanovun 1920-1921-ci illərdə Tiflisdə nəşr olunan “Kafkazkaya kommuna” qəzetinin redaktoru kimi fəaliyyət göstərməsi də mətbuat tariximizin qiymətli səhifələrindəndir. Beləliklə, “Kafkaz”, “Novoye vremya”, “Novoye obozreniye”, “Zaqafqaziye”, “Kafkazskaya kommuna” qəzetlərində geniş mənada Azərbaycan həyatına, o cümlədən Naxçıvana həsr edilmiş məqalələr Məhəmməd ağa Şahtaxtlı və Eynəli bəy Sultanovun qələmindən çıxmış qiymətli publisistika nümunələridir.

Naxçıvanda Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin 1881-ci ildəki ilk üç məzmunundan biri olan Əliməmməd Xəlilov da “Qafqaz” qəzetində Naxçıvanın təmsilçisi kimi fəaliyyət göstərmişdir. Bu da maraqlıdır ki, Qori Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin müdiri Aleksey Osipoviç Çerniyayevski (1840-1894) seminariyadan aralandıqdan sonra, 1894-cü ildə Tiflisdə “Fikir” adına da qəzet təsis etmək istəmiş və həmin məqsədlə əməkdaşlıq etmək üçün müraciət etdiyi ilk keçmiş seminaristlərdən birincisi Əliməmməd Xəlilov olmuşdur. Qurbanəli Şərifzadə “Həblül-mətn” qəzetinin Naxçıvan təmsilçiliyi missiyasını həyata keçirmişdir. Culfada yaşayıb işlədiyi 1906-1913-cü illərdə Əliqulu Qəmküsar “Molla Nəsrəddin” jurnalının yerli müvəkkili olmuş, Tağı bəy Səfiyev bu satirik jurnala Şərurda abunə işinin təşkilində kömək etmişdir.

Ümumən, Azərbaycanda və o cümlədən də Naxçıvanda ən çox yayılan və oxunan İsmayıl bəy Qaspıralının Baxçasarayda çap olunan “Tərcüman” qəzeti idi. İsmayıl bəy Qaspıralının “Dildə, fikirdə, əməldə birlik” ideyası çar Rusiyasında yaşayan türk-müsəlman əhalisinin əsas həyat və fəaliyyət devizinə çevrilmişdir.

Türk-müsəlman dünyasında ümummilli oyanışa və ictimai-mədəni tərəqqiyə xidmət göstərmək cəhətdən Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin” jurnalı rəqabətdə böyük sıçrayışa nail ola bilmişdir. “Molla Nəsrəddin” jurnalı Şərq-müsəlman fanatizminə zərbə vurub aradan qaldırmaqda, yeni cəmiyyət quruculuğuna, elm və maarifə yol açmaqda misli görünməmiş rekord əldə etmişdir. Lakin Azərbaycan maarifçiləri paralel olaraq “Tərcüman” qəzetinə də böyük rəğbətlə yanaşmışlar. Məhəmməd Tağı Sidqinin 1891-ci ildə Ordubadda açdığı “Əxtər” məktəbi, xüsusən 1894-cü ildə Naxçıvan şəhərində təsis etdiyi “Məktəbi-Tərbiyyə” özünün xarakterinə görə “Tərcüman” qəzetinin redaktoru İsmayıl bəy Qaspıralının “Üsuli-cədd” məktəbi ideyasının Azərbaycandakı ən mükəmməl nümunələrindən biri idi. Məhəmməd Tağı Sidqi özü də İsmayıl bəy Qaspıralının maarifçilik ideyalarına böyük rəğbət bəsləmiş, hətta “Tərcüman” qəzetinin xidmətlərini vəsf edən xüsusi bir şeir də yazmışdır. Məhəmməd Tağı Sidqinin “Tərbiyə” məktəbində “Tərcüman” qəzeti alınıb oxunmuş, İsmayıl bəy Qaspıralının ideyaları geniş təbliğ olunmuşdur.

Bütün bunlar Azərbaycanın digər bölgələri kimi, Naxçıvanda da Həsən bəy Zərdabi ideyalarının işığında “Əkinçi” qəzetinin açdığı yolun, təbliğ etdiyi ideyaların nəinki yaşadıldığını, yayıldığını, hətta həm maarifçilik və həm də qəzetçilik istiqamətlərində həyata keçirildiyini və inkişaf etdirildiyini göstərir. XIX əsrin yetmişinci illərinin ortalarından başlayıb XX əsrin əvvəllərinə, Azərbaycanda sovet hakimiyyətinin qurulmasına qədər davam edən həmin tarixi mərhələni Naxçıvan “Əkinçi”ləri dövrü adlandırmaq olar. Naxçıvan “Əkinçi”ləri Həsən bəy Zərdabinin “Əkinçi” qəzeti ilə əməkdaşlıq edən, “Əkinçi” ideyalarını həyata keçirmək, yaymaq və yaşatmaq üçün mətbuat dünyasında və məktəb hərəkatında təşəbbüslər göstərən maarifçi ziyalıların aparıcı qüvvələri olmuşlar. Naxçıvan “Əkinçi”ləri – Həsən bəy Zərdabinin və “Əkinçi” qəzetinin ideyaları əsasında ölkəmizdə milli şüurun oyanışına, maarifçi ideyalarının formalaşdırılmasına və gerçəkləşdirilməsinə xidmət edən yeni maarifçilər nəslinin Azərbaycanın bu regionunda yetişib meydana çıxmış işıqlı və fədakar simaları idilər. Naxçıvan “Əkinçi”ləri Azərbaycan üzrə “Əkinçi”lik hərəkatının ləyaqətli davamçıları kimi gələcək müstəqil dövlətçilik ideallarının yayılmasına və mətbuat dünyasının genişlənməsinə fədakarlıqla ömür həsr etmiş ziyalı nəsilləri demək idi.

Naxçıvan “Əkinçi”ləri Azərbaycanın ayrılmaz üzvü tərkib hissəsi olan Naxçıvan diyarında “Əkinçi”lik hərəkatını müxtəlif mətbuat orqanları ilə əməkdaşlıq etmək, yaxud qəzet təsis etməyə təşəbbüs göstərmək mərhələsindən, nəhayət, qəzet-jurnal yaratmaq səviyyəsinə qədər yüksəlmək baxımından da mühüm xidmətlər göstərmişdir. Bu yeni tarixi mərhələ Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra ilk mətbuat orqanının yaradılması ilə başlanan və dövlət müstəqilliyinin inkişaf etdiyi bizim günlərə qədər müxtəlif qəzet və jurnalların fəaliyyəti ilə davam etməkdə olan və bundan sonra da gələcək üfüqləri aydın görünən çoxcəhətli bir ədəbi-ictimai prosesi özündə cəmləşdirir. Obrazlı şəkildə desək, bu, Naxçıvanda ilk “Əkinçi”lərin fəaliyyətə başlamasından regionda “Əkinçi”lik hərəkatının formalaşdırılmasına qədər keçilmiş şərəfli və məsuliyyətli yolun uğur hekayəsidir.

Mətbuat tarixçiləri artıq müəyyən etmişlər ki, Naxçıvanda ilk mətbuat orqanı birinci sayı 1 noyabr 1921-ci ildə Naxçıvan Diyarı Gənclər Təşkilatının mətbuat orqanı kimi çıxmış “Cavanlar həyatı” qəzetidir. Cəmi iki aya yaxın fəaliyyət göstərmiş “Cavanlar həyatı” qəzetinin nəşri ilə Naxçıvanda mətbuat yaratmaq işinin təməli qoyulmuşdur. Bundan sonra 1921-ci ilin dekabr ayından etibarən Naxçıvan İctimai Şura Cümhuriyyəti Mərkəzi Komitəsinin rəsmi mətbuat orqanı kimi bir neçə sayı işıq üzü görmüş “Füqəra səsi” qəzeti regionda mətbuat işinin davamlı olacağı fikrini gündəmə gətirmişdir. Nəhayət, 1922-ci ilin aprel ayında Naxçıvan Xalq Komissarları Şurasının mətbu orqanı kimi nəşrə başlayan “Şərq qapısı” qəzetinin bir əsrdən artıq uzunömürlü və davamlı fəaliyyəti ilə Naxçıvanda mətbuat işi dövlət səviyyəsində təşkil olunmuş və inkişaf etdirilmişdir. Sonrakı dövrlərdə Naxçıvan Vilayət Partiya Komitəsinin orqanı kimi “Şərq qapısı”, əsasən, ictimai-siyasi qəzet kimi fəaliyyət göstərmiş, muxtar respublikasının mətbuat salnaməsinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının bütün sahələr üzrə çoxcəhətli inkişafının əlamətdar hadisələri və faktları “Şərq qapısı” qəzetində salnaməlləşdirilmişdir. Regionun ədəbi qüvvələrinin və elm və incəsənət adamlarının da fəaliyyətini əks etdirdiyi üçün “Şərq qapısı” qəzeti həm də maarifçi mətbuat orqanı, ziyalı qəzeti kimi də fəaliyyətini uğurla davam etdirmişdir. Fikrimizcə, “Şərq qapısı” qəzetinin 104 illik fəaliyyətini aşağıdakı mərhələlərə ayırmaq olar:

1. “Şərq qapısı” qəzetinin yaradılması, formalaşdırılması və inkişaf dövrü *(1921-1979-cu illər).*
2. “Şərq qapısı” qəzetinin “Sovet Naxçıvanı” adı ilə nəşr olunduğu mərhələ *(1979-1989-cu illər).*
3. Sovet hakimiyyəti dövründə “Şərq qapısı” qəzetinin müstəqil mətbuat orqanı kim fəaliyyət göstərdiyi aylar *(yanvar-fevral 1990-cı il).*
4. “Şərq qapısı” Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrü mətbuat orqanı funksiyasında *(1991-ci ilədək).*
5. Həftəlik “Şərq qapısı” qəzeti mərhələsi *(2024-cü ildən).*

XX əsrin əvvəllərində Naxçıvanda dövlət mətbuat orqanı kimi “Şərq qapısı” qəzeti təsis edilərkən yuxarı dairələrdə SSRİ-nin Şərq siyasəti əsas olaraq qəbul edilmişdir. “Şərq qapısı” qəzeti isə özünün bir əsrdən artıq davam edən fəaliyyəti ərzində Azərbaycanın ayrılmaz bir parçası olan, bolşeviklər tərəfindən Zəngəzurun işğal edilərək Ermənistana verilməsindən sonra ana Vətəndən ayrı salınmış Naxçıvana açılmış mətbuat qapısı funksiyasını həyata keçirmişdir. “Şərq qapısı” qəzeti hazırda Naxçıvanın tarixi, mədəniyyəti, iqtisadiyyatı, sosial həyatını Azərbaycan tarixinin və inkişaf yolunun ayrılmaz tərkib hissəsi kimi təsvir və təqdim etmək missiyasını həyata keçirməkdə davam edir. Zaman-zaman Naxçıvan Muxtar Respublikasının ərazisinə iddia edən Ermənistana da “Şərq qapısı” sözünün daşıdığı, bu regionun Şərqyönlü türk-müsəlman diyarı, oğuz yurdu olduğunu bildirən mənaları əsl cavabın ifadəsidir. “Şərq qapısı” sözünün mənası vaxtilə sovetlər ittifaqının yüksək rəhbərliyində olub, Naxçıvanı Ermənistana birləşdirmək xülyalarına dəstək verənlərə də bu torpağın, muxtar respublikanın ərazisinin qeyri-azərbaycanlı xalqlarla heç bir əlaqəsi olmadığını bəyan etməyin isbatıdır. Bütün bunlara görə “Şərq qapısı” qəzetinin adı Naxçıvan Muxtar Respublikasının Azərbaycançılıq möhürüdür. “Şərq qapısı” bu şərəfli missiyanı bir əsrdən artıqdır ki, məsuliyyətlə davam etdirməkdədir.

“Şərq qapısı” qəzetinin formalaşdırdığı və ardıcıl olaraq həyata keçirdiyi Azərbaycançılıq missiyası sovet ideologiyası ilə uyğun gəlmədiyi üçün SSRİ-nin rəsmi dairələrində müəyyən narahatlıq doğurmuşdur. Analoji vəziyyət Özbəkistanda və digər keçmiş sovet-türk respublikalarında da müşahidə olunduğuna görə Sovetlər İttifaqının rəhbərliyi bu tendensiyadan ehtiyat etdiyi üçün “Şərq qapısı” qəzetinin adını dəyişdirərək “Sovet Naxçıvanı” sözü ilə əvəz etmişdir. Uzun illər həyatlarını “Şərq qapısı” qəzetinə həsr etmiş Naxçıvan “Əkinçi”ləri adı süni surətdə dəyişdirilsə də, “Şərq qapısı” qəzetinin məqsədinə və məramına xidməti həmişə qoruyub saxlamışlar. Həm də rus dilində “Sovetskaya Naxçıvan” adı ilə çap olunan “Şərq qapısı” qəzetindən Azərbaycanın bu tarixi diyarının keçmişi və bu gününün daha geniş miqyasda təbliğ edilməsi məqsədilə istifadə edilmişdir. “Şərq qapısı” qəzeti 1979-cu ildən 1989-cu ilə qədərki dövrdə də “Sovet Naxçıvanı” və “Sovetskaya Naxçıvan” adlı ilə çıxsa da, ənənəvi Azərbaycançılıq idealına sadiq qaldığını nümayiş etdirmişdir.

Fikrimizcə, Azərbaycan mətbuatının tarixində ən nadir hadisələrdən biri “Şərq qapısı” qəzetinin fəaliyyətində baş vermişdir. Belə ki, Bakı şəhərində baş verən Qanlı 20 Yanvar hadisələrinə və Ermənistanın həmin günlərdə muxtar respublikada törətdiyi qırğınlara cavab olaraq Naxçıvan Muxtar Respublikasının Ali Soveti muxtar respublikanın SSRİ-nin tərkibindən çıxdığını bəyan etdiyi üçün “Şərq qapısı” qəzeti qısa bir müddətdə olsa da, öz fəaliyyətini müstəqil dövlətçilik prinsipləri əsasında davam etdirmişdir. “Şərq qapısı” qəzetinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının deyil, Naxçıvan Muxtar Respublikasının mətbuat orqanı olaraq 1990-cı ildə, təxminən, bir ay “Bütün ölkələrin proletarları, birləşin” ənənəvi şüarı ilə yox, “Birlik və demokratiya uğrunda” devizi ilə çap edilməsi Azərbaycan mətbuatı tarixinin nadir hadisədir. O vaxta qədər digər sovet respublikalarının mətbuat tarixində də buna bənzər heç bir hadisə baş verməmişdir. Özünü yeni Naxçıvan Muxtar Respublikasının mətbuat təmsilçisi kimi təqdim edən “Şərq qapısı” qəzetinin Naxçıvan Muxtar Respublikası Ali Sovetinin muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması haqqındakı qərarını baş səhifəsində yerləşdirib çap etməsi ilə zamanı qabaqlamış, dövlət müstəqilliyi uğrunda başlanan mübarizəyə böyük təkan vermişdir. Bu, müstəqil dövlətçilik uğrundakı mübarizə yolunda “Şərq qapısı” qəzetinin tarixi xidmətidir. “Şərq qapısı” qəzeti 1990-cı ilin yanvar-fevral aylarında müstəqil Naxçıvan Muxtar Respublikasının orqanı kimi çıxan 8 sayında verilmiş materiallar vasitəsilə Azərbaycanda SSRİ rəhbərliyi tərəfindən törədilmiş Qanlı 20 Yanvar hadisələri haqqındakı həqiqətləri qonşu Türkiyə və İran dövlətlərinin sərhəd bölgələrindəki yaşayış məntəqələrində yaymaqla beynəlxalq müstəviyə çıxararaq sovetlər ittifaqına sarsılmaz zərbə vurmuşdur. Həmin məsuliyyətli günlərdə Naxçıvan televiziyası və Naxçıvan radiosu da Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında Muxtar Respublika Ali Sovetinin qərarını bir neçə dəfə müxtəlif xarici dillərdə səsləndirmiş və Qanlı 20 Yanvar hadisələrinin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmışdır. “Şərq qapısı” qəzeti, təxminən, 1 ay davam edən müstəqillik əhvali-ruhiyyəsini öz səhifələrində əks etdirərək tarixə çevirmişdir. Bütün bunlara görə “Şərq qapısı” qəzeti SSRİ-nin dağılması proseslərini sürətləndirmiş, Azərbaycanda dövlət müstəqilliyi uğrunda aparılan mübarizədə ön mövqeyə çıxmışdır.

Artıq 35 ildir ki, “Şərq qapısı” qəzeti müstəqil Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının inkişaf yolunu işıqlandırmaqda və daha böyük sabahların ritmlərini və üfüqlərini göstərməkdə davam etdirməkdədir. Hazırda “Şərq qapısı” yeni inkişaf yoluna çıxmış və yeniləşməkdə davam edən Naxçıvanın müasir mərhələdəki yüksəliş strategiyasını əks etdirərək bu günün reallıqlarının təqdim olunmasına və sabahının üfüqlərinin göstərilməsinə inamla xidmət edir. Son dövrlərdə “Şərq qapısı” qəzetinin həftəlik və çox səhifəli qəzet formatında çap olunması da həm bu qəzetin tarixində, həm də region mətbuatının tarixi inkişaf yolunda ilk mühüm addımdır. Bu, həm də muxtar respublikada kiçikformatlı qəzetdən böyük formatda olan qəzetə keçid baxımından mühüm jurnalistika hadisəsidir. Hazırda təcrübəli mətbuat işçisi Sara Əzimovanın redaktorluğu ilə çıxan həftəlik “Şərq qapısı” qəzeti müstəqillik dövrü Azərbaycan jurnalistikasında özünəməxsus publisistika sənətkarlığı ilə seçilən orijinal qəzetçilik nümunəsidir. Bütün bunlar mətbuat dünyasında “Əkinçi”dən “Əkinçi”liyə keçidin əhəmiyyətli təzahürləridir.

XX əsrin otuzuncu illərində Naxçıvanda gələcəyin böyük yazıçısı və ictimai xadimi Mirzə İbrahimovun redaktorluğu ilə “Sürət” adlı qəzetin çıxması mətbuat tariximizin yaddaqalan hadisəsidir. O vaxtların siyasi idarəsi olan Maşın-Traktor Stansiyasının orqanı olması və “Sürət” adlandırılması bu qəzetin ideoloji xəttini müəyyən etməyə imkan verir. Lakin “Sürət” qəzetinə Mirzə İbrahimov kimi istedadlı və açıq görüşlü bir ziyalının rəhbərlik etməsi, onun həyatının Naxçıvan dövrü haqqındakı təsirli xatirələri bu qəzetdə dövrün həqiqətlərinin də əks etdirildiyini düşünmək üçün əsaslar yaradır. Hesab edirəm ki, qüvvələri səfərbər edib, “Sürət” qəzetinin nüsxələrini tapıb ortaya qoymaq ədəbiyyat və mətbuat tarixçilərimizin qarşısında duran mühüm vəzifələrdəndir.

Bundan başqa, Naxçıvanın bir əsrdən artıq mətbuat salnaməsində gələcək xalq yazıçısı Əli Vəliyevin “Şərq qapısı”na əlavə kimi çap etdirdiyi “Ədəbiyyat qəzeti” də mühüm yer tutur. Bu fakt haqqında xatirələrdə və məqalələrdə kifayət qədər yazılsa da, həmin qəzet də hələlik tapılıb üzə çıxarılmamışdır.

Müstəqilliyin başlanğıc illərində Bakı şəhərində çap edilən “Naxçıvan” qəzeti blokada və təzyiqlər dövrünün mübariz mətbuat orqanı kimi fəaliyyətini davam etdirmişdir. “Naxçıvan” qəzeti də mətbuat tarixi baxımından tədqiqata cəlb edilməyə layiqdir.

Bir neçə kəlmə də Naxçıvan Dövlət Universitetinin “Əkinçi”ləri haqqında deməyi əhəmiyyətli hesab edirəm. Naxçıvan Dövlət Universitetində ali məktəb qəzeti yaratmaq ideyası bu ali təhsil ocağını müasir dövrün çağırışlarının işığında hərtərəfli şəkildə inkişaf etdirmək ideyasından doğmuşdur. İlk sayı 15 oktyabr 1991-ci ildə çıxan “Fikir” adlı qəzet Naxçıvan Dövlət Universitetinin mətbu orqanı kimi ali məktəbin inkişafına işıq salan əhəmiyyətli mətbuat orqanıdır.

“Fikir” qəzeti Naxçıvan Dövlət Universitetinə yeni fikirlər, ideyalar, düşüncələr gətirmiş mətbuat kürsüsüdür. “Fikir” qəzeti Naxçıvan Dövlət Universitetində müəllimlərin və tələbə gəncliyin müstəqil dövlətçilik düşüncəsini möhkəmləndirmək və yeni dövrün yeni fikirli gənc “Əkinçi”lərini yetişdirib formalaşdırmaq üçün mühüm və aktiv jurnalistika tribunası rolunu oynamışdır. Filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimlinin baş redaktorluğu ilə “Fikir” qəzetinin 1991-1997-ci illərdə çap olunmuş 44 sayı Naxçıvan Dövlət Universitetinin “Əkinçi”si ola biləcək yaradıcı ziyalıları və istedadlı gənc “Əkinçi”ləri üzə çıxarmış, onları tanıtmış, gələcək “Əkinçi”lik yoluna – maarifləndirmə, qəzetçilik və tədqiqatçılıq yoluna hazırlamışdır.

Dünya universitetlərinin təcrübəsi nəzərə alınmaqla, Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 14 iyul 1998-ci il tarixli Qərarı ilə “Fikir” qəzeti eyniadlı informasiya bülleteninə çevrilmişdir. Bu, Azərbaycan ali məktəblərində universitet qəzetini əvəz edən ilk informasiya bülletenidir. “Fikir” informasiya bülleteninin sayları Naxçıvan Dövlət Universitetinin xəbərləri külliyyatı kimi bu ali təhsil ocağının çoxcəhətli fəaliyyətini salnaməlləşdirmişdir. “Fikir” İnformasiya Bülleteni elmi-ədəbi və publisistik yazılara da müəyyən yer ayırmış, universitetdəki yaradıcılıq mühitinə işıq salmışdır. “Fikir” İnformasiya Bülletenində ara-sıra elmi məqalələrin də verilməsi bu ali məktəb xəbərlər jurnalını Naxçıvan Dövlət Universitetində 1997-ci ildən nəşr edilən “Elmi əsərlər” jurnalından sonra ikinci köməkçi elmi jurnal kimi də əhəmiyyətli və cəlbedici etmişdir.

Bütün bunlarla bərabər, Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisasının açılması bu ali təhsil ocağında qəzetçilik işini öyrənən gələcək “qəzetçi Xəlillər” üçün qəzetin də yenidən nəşr edilməsi zərurətini meydana qoymuşdur. Beləliklə, 1 noyabr 2011-ci ildən Naxçıvan Dövlət Universitetində “Yeni fikir” adlı qəzet çıxmağa başlamışdır. “Yeni fikir” qəzeti Naxçıvan Dövlət Universitetinin “Əkinçi”si kimi təsis edilmiş “Fikir” qəzetinin davamı olsa da, universitetin yeni inkişaf mərhələsinin mətbu orqanı kimi fəaliyyətini davam etdirmişdir. “Yeni fikir”in böyük formatda qəzet kimi çap olunması Naxçıvan Dövlət Universitetinin də bütün istiqamətlərdə böyük inkişaf yolunda olmasının göstəricisi idi. “Fikir” İnformasiya Bülletenində arabir özünə yer tapa bilən müəllimlərin və tələbələrin ədəbi-publisist və elmi yaradıcılığı böyük formatda 12-24 səhifədən ibarət olan “Yeni fikir” qəzetində özünə yeni həyat tapa bilmişdir. Jurnalistika ixtisasının tələbələri “Yeni fikir”də əsl qəzetçilik məktəbi keçmək imkanı qazanmışdır. Ümumiyyətlə, Naxçıvan Dövlət Universitetində “Qeyrət” nəşriyyatının və mini mətbəənin mövcud olması, efirə çıxmaq səviyyəsində universitet radiosu və televiziyasının fəaliyyət göstərməsi ilə birlikdə bu ali təhsil ocağında paralel olaraq “Yeni fikir” qəzetinin ardıcıl surətdə işini davam etdirməsi Naxçıvanda ölkə miqyası səviyyəsində jurnalist kadrlarının hazırlanması üçün geniş imkanlar yaradır.

“Yeni fikir” qəzeti bu gün filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın redaktorluğu ilə yeni Naxçıvanın tam yeni inkişaf mərhələsinə çıxmış yeni tipli Naxçıvan Dövlət Universitetinin qəzeti kimi müasir dövrün elmi-maarifçi ideyalarına qol-qanad verən mətbuat orqanı miqyasında fəaliyyətini uğurla davam etdirməkdədir.

Azərbaycan mətbuatının 150 illik inkişaf yolu ölkəmizin hər yerində olduğu kimi, qəzetçilik sahəsində də böyük yol keçmiş, milli mətbuat yolunda mübarizə aparmış Naxçıvanda da əsl mətbuat bayramı səviyyəsində qeyd olunur. Ölkəmizin milli mətbuat qvardiyasının layiqli təmsilçiləri və davamçıları olan Naxçıvan diyarının “Əkinçi”lərini, Naxçıvan Dövlət Universitetinin gənc “Əkinçi” nəsillərini milli mətbuatımızın şanlı ildönümü münasibətilə ürəkdən təbrik edir və daha böyük uğurlar arzulayıram.



# Azərbaycan milli mətbuatının 150 illik yubileyi ilə bağlı tədbirlər keçirilib



İyulun 21-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Azərbaycanda milli mətbuatın yaranmasının 150 illik yubileyinə" həsr olunmuş "Milli mətbuat 150 il" adlı tədbir keçirilib.

Tədbirin əvvəlində Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Dövlət Himni səsləndirilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Təhminə Babayeva, "Şərq qapısı" qəzetinin gənc əməkdaşı, jurnalist Rafiq Təhməzov çıxış edərək 22 iyul – Milli Mətbuat Gününün ölkəmizdə söz və fikir azadlığının, milli düşüncənin, maarifçiliyin və vətənpərvərliyin təntənəsi kimi qeyd edilməsi barədə fikirlərini bölüşüblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxışında bildirib ki, Azərbaycan mətbuatının 150 illik tarixi, sözün əsl mənasında, xalqımızın maariflənməsi, ictimai düşüncənin formalaşması və milli ideologiyanın bərqərar olması yolunda keçdiyi şərəfli və əzablı bir yoldur. Həsən bəy Zərdabinin əsasını qoyduğu bu müqəddəs yol bu gün müasir Azərbaycanın azad, peşəkar və milli maraqlara xidmət edən mətbuat orqanları ilə uğurla davam etdirilir. Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.



Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" hazırlanmış və qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2025-ci il 3 fevral tarixdə "Azərbaycan milli mətbuatının 150 illiyi" Azərbaycan Respublikasının yubiley medalı təsis olunmuş, həmçinin 2025-ci il 25 aprel tarixdə "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.



Ölkəmizdə, eləcə də muxtar respublikamızda mətbuatın inkişafı, jurnalistlərin fəaliyyəti üçün geniş imkanlar yaradılıb. Bu il may ayının 30-da Naxçıvan şəhərində keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025" Naxçıvan mətbuatının dövlətçiliyin, maarifçiliyin, milli kimliyin qorunması və təbliğində mühüm rol oynadığını bir daha göstərdi.

Çıxışın sonunda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev media qurumlarının rəhbərlərini və əməkdaşlarını, bütün mətbuat işçilərini, jurnalistləri səmimi-qəlbdən təbrik edib, onlara fəaliyyətlərində uğurlar, yeni yaradıcılıq nailiyyətləri arzu edib və səmimi təşəkkürünü bildirib.



Sonda Azərbaycan milli mətbuatının 150 illik yubileyi ilə əlaqədar Naxçıvan televiziyası tərəfindən hazırlanmış videoçarx nümayiş olunub. Tədbirdə fəaliyyətində fərqlənən jurnalistlər mükafatlandırılıb.

Qeyd edək ki, tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı, media qurumlarının rəhbərləri və əməkdaşları, mətbuat işçiləri və jurnalistlər iştirak ediblər.

---



İyulun 22-də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində 22 iyul – Milli Mətbuat Günü münasibətilə media nümayəndələri üçün "Açıq qapı" günü keçirilib.

Müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin iştirakı ilə keçirilən tədbirin məqsədi media nümayəndələrini Milli Mətbuat Günü münasibətilə təbrik etmək, Naxçıvanda iqtisadi sahədə görülən işlər barədə onları məlumatlandırmaq və media ilə əməkdaşlığı gücləndirmək olub.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub.

Tədbirin açılışında çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev mətbuat işçilərini salamlayaraq Azərbaycan milli mətbuatının yaranmasının 150 illiyi münasibətilə təbrik edib, milli mətbuatın ölkənin sosial-iqtisadi inkişafındakı vacib rolunu qeyd edib. Medianın ictimai rəyin formalaşmasında, vətəndaşların iqtisadi proseslərə dair məlumatlılığının artırılmasında və islahatların geniş kütlələrə çatdırılmasında mühüm vasitə olduğunu vurğulayıb.



Daha sonra iqtisadiyyat naziri Kazım Hüseynəliyev nazirliyin 2025-ci ilin birinci yarımili üzrə fəaliyyəti və əldə olunan nəticələr barədə məlumat verib.

Jurnalistlər görüşün təşkilinə və onlara göstərilən diqqətə görə təşəkkürlərini bildirərək qarşılıqlı əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Sonra media mənsublarına iqtisadi sahədə baş verən yeniliklərin işıqlandırılmasında göstərdikləri peşəkarlığa görə təşəkkürnamələr təqdim olunub.

Sonda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi"nə mediatur təşkil olunub. Media nümayəndələri hərrac prosesi ilə bağlı praktiki nümunələrlə tanış olub.

---

İyulun 21-də Naxçıvan Dövlət Universitetində milli mətbuatın 150 illik yubileyi qeyd olunub. Müxtəlif media qurumlarının əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə jurnalistlər mükafatlandırılıb, ali təhsil ocağına yeni alınmış çəkiliş, efir, həmçinin mətbəə avadanlıqlarının da təqdimatı keçirilib.

Öncə universitetin "Media Mərkəzi" ilə tanışlıq olub. Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kifayət Mahmudova şöbənin fəaliyyəti haqqında ətraflı məlumat verib, yeni avadanlıqları təqdim edib.

Sonra "Media Mərkəzi"nin fəaliyyətinə dair videoçarx nümayiş olunub.

Tədbir çərçivəsində, həmçinin "NDU Nəşriyyat"a alınan yeni mətbəə avadanlıqlarının da təqdimatı keçirilib. Nəşriyyatın direktoru Məhəmmədəli Məmmədli iştirakçıları innovativ və funksional imkanlara malik, müasir çap və emal avadanlıqları ilə təchiz olunan universitet nəşriyyatının iş prinsipi ilə tanış edib. Vurğulayıb ki, yeni alınan



laminasiya cihazları, binderlər, üzləmə avadanlıqları və UV rəqəmsal təsvir printeri həm tədris materiallarının, həm də elmi, metodik, informativ və təqdimat xarakterli çap məhsullarının yüksək keyfiyyətlə hazırlanmasını təmin edir. Xüsusilə ən son yeniliklərdən biri olan UV rəqəmsal təsvir printeri vasitəsilə müxtəlif materiallar üzərində yüksəkkeyfiyyətli və davamlı çaplar aparılır. Bu texnologiyalar ilə həm reklam-təqdimat məhsulları, həm də fərdi hədiyyələr, lövhələr, tablolar və digər tətbiqi işlər yerinə yetirilir. Məhəmmədəli Məmmədli qeyd edib ki, alınan 350 min manat dəyərində yeni avadanlıqların hər biri ən müasir təchizatlardır.



Tədbir universitetin senat otağında jurnalistlərin, universitetin rəhbər heyətinin və əməkdaşların, tələbələrin iştirakı ilə davam edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək ölkə başçısı İlham Əliyevin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 2025-ci il 25 aprel tarixli Sərəncamının müstəqil mətbuatın inkişafına yönəlmiş dövlət qayğısının növbəti təzahürü olduğunu vurğulayıb. Rektor bütün mətbuat işçilərini təbrik edib, 150 il öncə 22 iyul tarixdə "Əkinçi" qəzetinin nəşrindən başlanan milli mətbuatın zəngin tarixi irsindən danışıb. Elbrus İsayev Universitetin Media və ictimaiyyətlə əlaqələr şöbəsinin ali təhsil ocağı ilə media arasında əlaqələndirici rolundan bəhs edib.

Daha sonra "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova və "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Xəbərlər Departamentinin rəhbəri Röyal Məmiyev NDU-nun media qurumları ilə əməkdaşlığından bəhs edib, göstərilən diqqətə görə təşəkkürlərini bildiriblər.

Tədbir Naxçıvan Dövlət Universiteti ilə səmərəli əməkdaşlıq və uğurlu fəaliyyəti ilə seçilən media qurumlarının nümayəndələrinin mükafatlandırılması ilə davam edib. Eləcə də universitetin "Media Mərkəzi"nin fəaliyyətində və "Yeni fikir" qəzetinin nəşrində əməyi olan əməkdaşlar mükafatlandırılıb. Həmçinin ali təhsil ocağında "Mətbuat: keçmişdən gələcəyə söz körpüsü" mövzusunda tələbələr arasında keçirilən yazı müsabiqəsinin qalibləri, Jurnalistika ixtisasının IV kurs tələbəsi Əli Yarıyev birinci yer, III kurs tələbəsi Rafiq Təhməzov ikinci yer, II kurs tələbəsi Nəzrin İsmayılova üçüncü yer olmaqla diplomla, digər iştirakçılar isə müxtəlif nominasiyalarla mükafatlandırılıb.

Sonda tədbirdən xatirə fotosu çəkdirilib.

---

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən 22 iyul – Milli Mətbuat və Jurnalistika Günü münasibətilə həyata keçirilən "Media-aktiv" layihəsi uğurla başa çatıb. Layihənin yekun tədbiri iyulun 21-də Naxçıvan şəhərində yerləşən "Saat Meydanı"nda təşkil olunub.

Tədbirin əvvəlində Azərbaycan milli mətbuatının 150 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub. Ardınca gənclər və idman nazirinin müavini, nazir vəzifələrini icra edən Məcid Seyidov çıxış edərək iştirakçıları əlamətdar gün münasibətilə təbrik edib, medianın cəmiyyətdəki roluna və əhəmiyyətinə diqqət çəkib.

"Media-aktiv" barədə fikirlərini bölüşən nazir müavini layihəni müxtəlif peşələrdə çalışan media nümayəndələrini bir yerə toplayaraq maraqlı və əyləncəli zaman keçirmələrinə səbəb olan təşəbbüs olmaqla yanaşı, onların arasında həmrəyliyi, sağlam rəqabəti və dostluğu simvolizə edən mühüm platforma kimi dəyərləndirib.



Tədbirdə layihənin fəal iştirakçılarından olan Arif Bayramov və Taleh Hüseynli çıxış edərək layihə ilə bağlı təəssüratlarını bölüşüb.

Daha sonra layihə çərçivəsində keçirilən yarışların videoçarxları izlənilib, ilk üç yeri tutan komandalar və fərqlənən iştirakçılar diplom, fəxri fərman, medal və hədiyyələrlə təltif olunublar.

Tədbir çay süfrəsi ətrafında səmimi müzakirələrlə davam edib və tədbirin sonunda iştirakçılarla xatirə fotosu çəkdirilib.

Xatırladaq ki, iyulun 10-u "Nə? Harada? Nə zaman?" intellektual oyunu ilə start götürən "Media-aktiv" layihəsi çərçivəsində stolüstü tennis, şahmat və futzal yarışları da təşkil olunmuşdu.

# Naxçıvanda fəaliyyət göstərən jurnalistlər təltif edilib

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən milli mətbuatın inkişafında xidmətlərinə görə bir qrup media işçisi "Tərəqqi" medalı ilə təltif edilib. Mükafata layiq görülənlər sırasında Naxçıvan Muxtar Respublikasında medianı təmsil edən Hüseyn Əsgərov, Xaliq Babayev, İlkin Rzayev, Qahirə Hüseynova və Faiq Musayev yer alır. "Şərq qapısı" qəzeti olaraq biz də "Tərəqqi" medalı ilə təltif olunan bir neçə həmkarımızın təəssüratlarını öyrəndik.*

"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmaq mənim üçün böyük şərəfdir".



"Şərq qapısı"na müsahibəsində bu sözləri ***"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Xaliq Babayev*** söyləyib.

"Bu mükafat yalnız şəxsi fəaliyyətimin deyil, eyni zamanda çalışdığım kollektivin, Naxçıvan televiziyasının inkişaf yoluna verilən dəyərin ifadəsidir. Artıq 11 ildir ki, televiziya sahəsində fəaliyyət göstərirəm və bu müddətdə daim peşəkarlığa, milli maraqlara və məsuliyyətə sadiq olmuşam. Bu cür qiymətləndirmə gələcək fəaliyyətimə daha böyük ruh verir. Naxçıvan televiziyası hazırda peyk yayımı ilə ölkənin informasiya məkanında önəmli mövqeyə sahibdir. Texnoloji yeniliklər, yaradıcı yanaşma və komanda ruhu bu inkişafın əsas dayaqlarıdır. Milli mətbuatın 150 illiyi kimi əlamətdar bir zamanda belə yüksək mükafata layiq görülmək mənim üçün həm qürurverici, həm də mənəvi cəhətdən dəyərli hadisədir. Bu münasibətlə ölkə başçısına sonsuz minnətdarlığımı bildirir, bütün media nümayəndələrini təbrik edirəm", – deyə Xaliq Babayev bildirib.

"Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə ölkə başçısının 2025-ci il 21 iyul tarixli Sərəncamı bu sahədə çalışan şərəfli peşə sahiblərinin bayram sevincini bir qədər də artırdı".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində ***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov*** söyləyib:



"Bu sevincə şərik olanlardan biri də mənəm. Ölkə Prezidenti tərəfindən əməyim yüksək qiymətləndirilərək "Tərəqqi" medalı ilə təltif edilməyim böyük qürur hissi doğurur. Bu hissləri sözlə ifadə etmək çətindir. Məni bu yüksək mükafata layiq gördüyü üçün Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Bu gün media sahəsinə göstərilən diqqət və qayğı hər bir jurnalistin daha məsuliyyətlə çalışmasına stimul verir. Mənim üçün bu təltif həm də onunla əlamətdardır ki, bu il 70 illik ömrümün və 50 illik mətbuat fəaliyyətimin tamam olduğu illə üst-üstə düşür. İlk yazım "Nəticə çıxaracaqlarmı?" 1971-ci il 27 fevral tarixdə "Şərq qapısı" qəzetində dərc olunmuşdu. Bu yazıya görə kəndimizdəki kolxoz sədrinə töhmət verilməsi mənim üçün jurnalistikaya bağlanmağımda həlledici oldu. Milli mətbuatımızın təməlini qoyan Həsən bəy Zərdabinin 1875-ci ildə nəşrə başladığı "Əkinçi" qəzeti maarifçilik missiyası ilə çıxış edərək cəhalətə və xurafata qarşı mübarizə aparıb, milli şüurun formalaşmasında böyük rol oynayıb. O, milli mətbuatın çırağını yandırdı, sonrakı nəsrlər isə bu çırağı məşələdək böyütdü. Bu gün yaradılan şəraitdən faydalanaraq bütün media nümayəndələrini peşə bayramları münasibətilə təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram", – deyə Əməkdar jurnalist bildirib.

"Azərbaycan milli mətbuatının 150 illiyində belə bir yüksək mükafata, "Tərəqqi" medalına layiq görülmək mənim üçün həm şərəf, həm də məsuliyyətdir".



"Şərq qapısı"na müsahibəsində ***"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-nin Proqram, efirə buraxılış və əlaqələndirmə departamentinin rəhbəri İlkin Rzayev*** deyib.

"Bu etimada görə Prezident İlham Əliyevə ailəm və Naxçıvan televiziyasının kollektivi adından dərin təşəkkürümü bildirirəm. Həsən bəy Zərdabinin əsasını qoyduğu milli mətbuat ənənələrini bu gün müasir jurnalistikanın tələblərinə uyğun şəkildə davam etdirmək bizim başlıca məqsədimizdir. Bir neçə gün öncə keçirilən III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev qeyd etdi ki, bu gün Azərbaycan mediası milli maraqları qorumaqda və əsassız ittihamları faktlarla ifşa etməkdə ciddi nailiyyətlər qazanır. Bu bizim üçün fəaliyyət istiqamətimizin təsdiqi və stimuldur. Naxçıvan televiziyası üçün də son illər mühüm mərhələ olub. Prezidentin Fərmanı ilə peyk yayımı üçün lisenziya verilməsi və "MEDİAFEST-2025" çərçivəsində ilk peyk yayımının təşkili bizim üçün yeni imkanlar açdı. Qarşıya qoyulan hədəflərə çatmaq üçün kollektivimizlə birlikdə var gücümüzlə çalışacağıq. Dövlətimizin göstərdiyi bu yüksək etimada daim layiq olacağıq", – deyə İlkin Rzayev qeyd edib.

"Şərq qapısı" qəzeti olaraq biz də həmkarlarımızı ürəkdən təbrik edir, fəaliyyətlərində yeni uğurlar arzulayırıq.

## "Bu Sərəncam tələbəyönümlü təhsilin təşkilinə böyük dövlət qayğısıdır"

*Bunu "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 24 iyul tarixli Sərəncamı ilə bağlı açıqlamasında Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev deyib.*



Rektor qeyd edib ki, Prezidentimizin bu Sərəncamı ali təhsil müəssisələrində tələbəyönümlü təhsilin təşkilinə böyük dövlət qayğısıdır və tələbəyönümlülük bu gün ölkəmizdə təhsil siyasətinin ən mühüm strateji hədəflərindən biridir. Tələbələrimizin sosial vəziyyətinin yaxşılaşdırılmasına ciddi bir dəstək kimi bu Sərəncam ali təhsilə olan marağı artırmağa xidmət edəcək və eyni zamanda təhsil alanların keyfiyyətyönümlü inkişafına həm sağlam rəqabət mühiti, həm də bir motivasiya olacaq ki, onlar gələcəkdə öz təhsil göstəricilərini daha da inkişaf etdirmək haqqında düşünsünlər. Bu, təhsil alanlara dövlətimiz tərəfindən kifayət qədər böyük diqqətdir.

Ümumilikdə, son illərdə ali təhsil sistemində, bütövlükdə, ali və orta ixtisas təhsilinin inkişafı ilə bağlı həm maddi-texniki bazanın gücləndirilməsi, həm reytinqlərdə universitetlərimizin qazandığı uğurlar, həm də yeni universitetlərin yaranması, yeni ixtisasların məzmun proqramlarının yenilənməsi cəmiyyətimizdə ölkə ali təhsilinə marağı artırmışdır. Təbii ki, bu siyasətin başında ölkəmizdə aparılan təhsil islahatları dayanır və bu təhsil islahatları daim ölkə başçısının diqqətində olub.

"Biz universitet kollektivi olaraq inanırıq ki, bu Sərəncam ali təhsilə olan marağı daha da artıracaq, tələbələrimizin bu vəsait hesabına əlavə ödənişli xidmətlərə əlçatanlığı təmin olunacaq. Əlbəttə ki, onlar bu təqaüdlər hesabına, sadəcə, sosial vəziyyətlərinə deyil, öz peşəkar inkişaflarına da dəstək imkanı əldə edəcəklər. Çünki bilirik ki, tələbələrimiz əlavə təlimlərə, ödənişli xarici dil kurslarına qoşulurlar, zövqlərinə uyğun müxtəlif kitablar alıb oxumaq həvəsləri var. Ailə büdcəsi ilə bərabər, ölkə başçısının müəyyənləşdirdiyi bu büdcə gələcək sağlam, intellektual gənclərin yetişdirilməsinə qoyulmuş ən ciddi və səmərəli kapitaldır. Bir daha universitet kollektivi adından ölkə başçısına belə mühüm Sərəncama görə dərin minnətdarlığımızı bildiririk", – deyə rektor əlavə edib.

## "Şərq qapısı" qəzetinin əməkdaşlarına vəsiqə və nişanlar təqdim olunub



Milli mətbuatın 150 illik yubileyi münasibətilə "Şərq qapısı" qəzetinin əməkdaşlarına təltiflər təqdim olunub. Bu münasibətlə qəzetin redaksiyasında tədbir keçirilib.

Tədbirdə "Şərq qapısı" qəzetinin baş redaktor müavini Məmməd Babayev "Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə media nümayəndələrinin təltif olunmasının dövlət tərəfindən mətbuata göstərilən yüksək diqqət və etimadın bariz nümunəsi olduğunu bildirib.

Məmməd Babayev qeyd edib ki, Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda səsləndirdiyi ***"Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir"*** fikri jurnalistlərin üzərinə düşən məsuliyyəti daha da artırır. O bu diqqət və etimada görə, minnətdarlığını bildirib və vurğulayıb ki, 2025-ci il 21 iyul tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov tərəfindən media



nümayəndələrinin təltif olunması haqqında imzalanan Sərəncama əsasən "Şərq qapısı" qəzetinin 6 əməkdaşının da təltif olunması xüsusi əhəmiyyət daşıyır.

Tədbirdə vurğulanıb ki, "Şərq qapısı" qəzeti fəaliyyətində daim ictimai və dövlət maraqlarını əsas tutur, bu yolda peşəkarlıq və obyektivlik prinsiplərinə sadiq qalır.

Sonda təltif olunan əməkdaşlara fəxri adların vəsiqə və döş nişanları təqdim olunub.

## "Araz-Naxçıvan"dan tarixi qələbə




Konfrans Liqasında mübarizə aparan muxtar respublikanın "Araz-Naxçıvan" komandası tarixi qələbə qazanıb.

"Araz-Naxçıvan" bu gün Konfrans Liqasında "Aris"i qəbul edib.

Qarşılaşmada hesabı qonaqlar açıblar. 66-cı dəqiqədə Moron Loren fərqlənib. Bununla belə özündə güc tapan meydan sahibləri 75-ci dəqiqədə Felipe Santosun, 3 dəqiqə sonra isə Patrik Andradenin qoluna sevinriblər.

Qeyd edək ki, tərəflər arasında cavab matçı isə iyulun 31-də Salonikidə baş tutacaq.



## "Şərq qapısı" qəzetinin şöbə müdiri MEDİA tərəfindən keçirilən "Fərdi jurnalist müsabiqəsi"nin qalibi olub



Medianın İnkişafı Agentliyinin ötən ay elan etdiyi "Fərdi jurnalist müsabiqəsi"nin qalibləri müəyyənləşib. Bir neçə nominasiya üzrə keçirilən müsabiqədə "Şərq qapısı" qəzetinin şöbə müdiri Ceyhun Məmmədov "Ən yaxşı reportaj" nominasiyası üzrə qalib elan olunub.

## “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi”nə mediatur təşkil olunub




Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunan mediaturda media nümayəndələri, jurnalistlər, nazirlik əməkdaşları iştirak edib.

Bildirilib ki, 2025-ci il 6-16 iyul tarixlərdə Paris şəhərində keçirilən UNESCO-nun Dünya İrsi Komitəsinin 47-ci sessiyası çərçivəsində Azərbaycan tərəfindən təqdim olunan “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilib.

Gəmiqaya Azərbaycanın ən qədim mədəniyyət nümunələrindən biridir və Ordubad rayonu ərazisində, Zəngəzur silsiləsinin suayırıcı hissəsində, 3725 metr yüksəklikdə yerləşir. Bu ərazi Tunc dövründən orta əsrlərə qədər müxtəlif tarixi mərhələləri əks etdirən zəngin qayaüstü təsvirlərlə məşhurdur. Gəmiqaya petroqlifləri qədim insanların məişətini, inanclarını və bədii dünyagörüşünü əks etdirən nadir nümunələrdir və həm elmi, həm də turistik baxımdan böyük əhəmiyyət daşıyır.

Ordubad rayonu ərazisindəki digər maraqlı təbiət abidələrindən biri isə Göygöldür. Rayonun Nürgüt kəndi yaxınlığında, Zəngəzur silsiləsinin cənub yamacında, 3065 metr yüksəklikdə yerləşən Göygölün sahəsi 1,5 hektar, dərinliyi isə 6,5 metrə çatır. Suyunun göyümtül rəngə oxşamasına görə belə adlandırılıb. Göygöl ilin bütün fəsillərində yağan qar və yağış sularından, eləcə də gölün ortasından qaynayan bulaqlardan qidalanır. Bu təbiət abidəsinin gözəlliyi ondadır ki, burada ilin dörd fəslini də eyni anda müşahidə etmək mümkündür. Belə ki, gölün bir tərəfində qar, bir tərəfində gül-çiçək, bir tərəfində soyuq, bir tərəfində günəşli havanı eyni vaxtda müşahidə etmək mümkündür.

20 iyul tarixdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi”nə mediatur təşkil olunub.

## Göygölün iqlim xüsusiyyətləri, geologiyası burada turizmin sürətli inkişafına mühüm töhfə verə bilər



Məlum olduğu kimi, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda bir çox sahələr kimi, abidələrin qorunması sahəsində də tədbirlər nəzərdə tutulub. Onlardan biri də Naxçıvanın bəzi tarix-mədəniyyət abidələrinin YUNESKO-nun Ümumdünya İrsinin Siyahısına salınmasıdır. Artıq bu işlərə başlanılıb. 2025-ci iyulun 11-də YUNESKO-nun Paris şəhərində keçirilən 47-ci sessiyasında Azərbaycan tərəfindən təqdim olunmuş Gəmiqaya və Göygöl tarixi və təbii və mədəni kompleksinin YUNESKO-nun Ümumdünya İrsinin İlkin Siyahısına salınması barədə qərar qəbul olunub. Hesab edirəm ki, bu addım həmin istiqamətdə görülən işlərə mühüm töhfədir. Hazırda olduğumuz məkan, həqiqətən, çox unikal ərazidir. Xüsusən də burada ilin bütün fəsillərinin əlamətlərini müşahidə edirik və bu da ərazinin unikallığını daha da artırır”.

Bu sözləri mediatur çərçivəsində jurnalistlərə müsahibəsində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələləri şöbəsinin böyük məsləhətçisi Həsən Kərimov deyib.

O qeyd edib ki, bu cür mediaturlar ərazinin öyrənilməsi, təbliği baxımından mühüm əhəmiyyət kəsb edir: “Növbəti mərhələlərdə, yəqin ki, təkcə yerli media nümayəndələri deyil, həm də xarici media əməkdaşlarının bu ərazilərə mediaturları təşkil olunacaq. Bu da təbiət, mədəniyyət abidələrinin öyrənilməsinə öz mühüm töhfəsini verəcək. Xüsusilə qeyd etmək istəyirəm ki, kompleksə daxil olan Gəmiqaya qoruğu Naxçıvanın ən qədim yaylaq, yurd yerlərindən biridir. Arxeoloqların ərazidə apardıqları tədqiqatların nəticələri göstərir ki, alp çəmənlikləri ilə zəngin olan bu ərazi eramızdan əvvəl IV minillikdən başlayaraq Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri olub”.

Nazirlər Kabinetinin əməkdaşı qeyd edib ki, ərazidə çoxsaylı qayaüstü təsvirlərə rast gəlmək mümkündür və onların içərisində müxtəlif heyvan təsvirləri, şərti işarələri var. Və o şərti işarələrin də tədqiqi göstərir ki, Azərbaycan xalqının qədim dövrlərdən bəri özünəməxsus dini, fəlsəfi dünyagörüşü olub. Tariximizin yaşadılması baxımından abidələrin qorunması, öyrənilməsi, yeni tədqiqatlara cəlbolunması çox əhəmiyyətlidir, vacibdir.

“Ümumiyyətlə, Göygöl Kiçik Qafqazın ən hündür dağ gölü hesab olunur və ərazinin yerləşdiyi hündürlük dəniz səviyyəsindən 3 min metrdən artıqdır. Göygölün dərinliyi 6,5 metrdir. Ümumilikdə, 1,5 hektar ərazini əhatə edir. Vulkanik mənşəli göldür. Əsasən, gölün ortasında olan bulaqlardan mütəmadi yağan qar və yağış sularından qidalanır. Onu da qeyd edim ki, Naxçıvanın ən bol sulu çaylarından biri olan Saqqarsu çayı da mənbəyini məhz bu göldən götürür. Ümumilikdə, ərazinin iqlim xüsusiyyətləri, geologiyası burada turizmin sürətli inkişafına mühüm töhfə verə bilər. Əlbəttə ki, gələcəkdə buraya müxtəlif turların təşkilini, yerli əhali ilə yanaşı, xaricdən də gələn qonaqların da səfərlərini müşahidə edəcəyik”, – deyə Həsən Kərimov əlavə edib.

# İndoneziyalı fotoqrafın Naxçıvana heyranedici baxışı

İndoneziyalı məşhur fotoqraf Aris Setya Naxçıvanda səfərdə olarkən çəkdiyi unikal görüntülərlə diqqət çəkib. Təxminən, 12 min izləyicisi olan fotoqraf “Instagram” hesabında Əlincə qalasından, Göygöldən, Heydər məscidindən, Naxçıvan şəhərindən, Batabat yaylağından, Haçadağdan və Əshabi-kəhf ziyarətgahından çəkdiyi fotoları paylaşaraq bölgənin təbii və tarixi gözəlliklərini izləyicilərinə təqdim edib.

Paylaşımlar qısa müddətdə böyük maraq doğurub, bir çox izləyici Naxçıvana səyahət arzusunu rəylərdə ifadə edib. Aris Setyanın obyektivindən təqdim olunan bu görüntülər Naxçıvanın turizm potensialını bir daha nümayiş etdirib.

**Paylaşımları təqdim edirik:**










# Səssiz abidələrlə yaşayan, tarixin daşlara həkk olunduğu kənd





✍ Ceyhun MƏMMƏDOV













Naxçıvanın sıldırım dağlarının arxasında, buludların arasından görünən bir kənd var – Yuxarı Əylis. Buraya gəlmək üçün dar, dolama yolları keçmək və şəhər səsindən uzaqlaşmaq lazımdır. Amma kəndə çatan kimi anlayırsan: bu səssizliyin içində yüzillik tarix yatır. Bu kənd, sadəcə, bir yaşayış yeri deyil, həm də təbiətlə içiçə yaşayan bir tarix muzeyidir. Burada orta əsrlərə aid evlər, mədrəsələr, tarixi abidələr və qədim məscid qalıqları var. Ən maraqlısı isə kəndin mərkəzində yerləşən karvansaradır.

### *Dağların qoynunda unudulmuş tarix*

Yuxarı Əylis səssiz dağların qoynunda unudulmuş tarixdir sanki. Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Yuxarı Əylis kəndi bu gün sükut içində yaşayır. Ordubad rayonunun yüksək dağlıq hissəsində yerləşən bu kənd bir zamanlar mədəniyyətlərin qovuşduğu, ticarət yollarının keçdiyi, incəsənətin və sənətkarlığın mərkəzi olmuşdu. İndi isə o, dağların qoynunda susmuş daşlarla, qədim çinarlarla və solğun yaddaşlarla baş-başadır.

Hər daşının, hər divarının bir hekayəsi var bu kəndin. Girişindəki köhnə karvansara divarları bu ərazinin bir vaxtlar böyük bir ticarət mərkəzi olduğunu göstərir. Yerli sakinlər deyir ki, bu karvansara orta əsrlər dövründə istifadə olunub, xüsusilə Səfəvilər dövründə Naxçıvan bölgəsində hər kəsin ziyarət etdiyi, gəldiyi yer olub. Əylisli Musa bəy tərəfindən inşa edilən bu karvansaranın qalan uçuq divarları kəndin öz sakinləri üçün artıq keçmişin səssiz şahidləridir.

Kənd ağsaqqalı Yusif kişinin söhbəti: “Bu ərazidə böyük bazar və digər alış-satış məntəqələri fəaliyyət göstərirdi, müxtəlif ölkələrdən gələn tacirlər burada alver edərdilər. Həmin dövrdə əhalinin məşğulluq sahələrindən biri də ipəkçilik idi. Səbəb isə burada mülayim iqlim şəraiti ipəkqurdunun yetişdirilməsi üçün əlverişli olması idi. Ona görə də XIX əsrin sonlarında Əylisdə ilk ipəksarıma fabriki fəaliyyət göstərməyə başladı. Kəndin girişində isə “Qala qapısı” adlandırılan yer olub ki, bura orta əsrlərdə gömrük məntəqəsi rolunu oynayıb – şəhərə daxil olan və tərk edən adamların malları məhz burada yoxlanıb”.

### *Tək qalan evlər...*

Yuxarı Əylis kəndində tarixi keçmişə aid, sahibləri naməlum boş qalan evlər də var: pəncərələri sınıq, qapılarından paslı halda asılmış qıfıllar, dar küçələrində səssizlik... Bəzilərində hələ də bağlanmamış pərdələr var, sanki kimsə bu günsabah tarixinə, keçmişinə geri dönəcəkmiş kimi. Bir vaxtlar mədrəsə olan bina indi “tənha” haldadır, uçuq-sökük divarlarının arxasında lampa işığında elmə, təhsilə öz töhfəsini verən, dünyaya işıqsaçan sakinlərini gözləriyirmiş kimi görünür. Deyilənə görə, bu bina ötən əsrin ortalarında bir müddət məktəb kimi fəaliyyətini davam etdirsə də, sonradan qapısından qıfıl asılıb. Ümumiyyətlə, bu kənddə orta əsrlərdən başlayaraq elmə daha çox üstünlük verilib. Buna işarə olaraq “Molla Nəsrəddin” jurnalında belə hadisə öz əksini karikatura halında tapıb. Sakinlər deyir ki, o dövrlər Naxçıvanda fəaliyyət göstərən bütün təhsil ocaqlarında əylisli müəllimlər fəaliyyət göstərib, hətta muxtar respublikanın ilk təhsil naziri belə bu kənddən olub. Kəndin ən qədim məhəllələrindən hesab edilən Meydan məhəlləsində ikimərtəbəli mədrəsə binasının memarlıq xüsusiyyətləri onun Səfəvilər dövründə aid olduğunun göstəricisidir. O dövrdə belə bir mədrəsənin fəaliyyət göstərməsi Yuxarı Əylisdə elmə, biliyə nə qədər önəm verildiyinin göstəricisidir və bu mədrəsələrdə ətraf kəndlərin uşaqları belə təhsil alıblar. Burada yeni tipli məktəb isə XIX əsrin əvvəllərində fəaliyyətə başlayıb.

### *Məscid, mədrəsə, hamam*

Yuxarı Əylisdə sanki tarix daşların arasına gizlənib. Kəndin bəzi hissələrində, xüsusilə divarındakı izlər, üzərində naxışlar olan daşlar hələ də yerində qalır. Bunu Əylis çayının üzərində yerləşən və xalq arasında Şah Abbas körpüsü kimi tanınan körpüyə baxdıqca görmək mümkündür. Yusif Qədirquliyev deyir ki, bu körpü mühüm ticarət, iqtisadi əhəmiyyətə malik olub və orta əsrlərdə Ordubad-Əndəmic-Əylis istiqamətində hərəkət edən ticarət karvanları məhz buradan keçərək Əylis bazarına daxil olurmuşlar. Körpünün həndəvərini isə çay bir neçə dəfə yuyub. Tofiq Hüseynov bizi körpünün yanına aparır: “Müəyyən dövrlərdə bu kəndə 3 dəfə sel gəlib və hər dəfəsində də kəndi “yuyaraq” dağıdıb. Əylis bir zamanlar kiçik şəhər idi. Gördüyünüz bu yerdə böyük ticarət mərkəzi yerləşirdi. Ta kəndinin o başına kimi. Çoxu dağılıb, qalan isə yalnız bu qalıq divarlardır”. Kəndin dar küçələrində addımladıqca daşlara hopmuş tarix qoxulu abidələr, evlər, yarı uçulu divarlar bu kəndin çoxetnik və çoxdinli tarixinin sanki susqun şahidləridir. Bura tarix muzeyidir, lakin ziyarətçisi yoxdur.

Torpağın altından boylanan və məscidə söykənən hamam, onun ətrafında olan kəhriz bu kəndin mərkəzində yerləşir. Yusif kişi deyir ki, vaxtilə bu hamam məhz kəhrizin suyu ilə işlədilirmiş. Məscid, mədrəsə, hamam və kəhrizin bir yerdə kompleks halında olması Ordubada xas xüsusiyyətlərdən biridir. Hər küçəsində kəhrizi olan bu kənddə, hətta XVII əsrdə kəhriz sistemi belə mövcud olub. Kənd sakinləri deyir ki, Əylisdə 50-yə yaxın kəhriz var (imiş) və kəhrizlərin su sistemlərində pilləli kaskad tipi prinsipindən istifadə edilirmiş.

Təəssüflər olsun ki, indi bu kəhrizlər qismən quruyub. Amma kənd sakinləri torpağına sadiqdir. Kənd sakinləri “Biz burada doğulmuşuq. Burada da ölərik, burada torpağımız, ruhumuz var. Hər daş bir nişanədir”, – deyirlər.

### *Səssizliklə danışan kənd və ya gələcəyin səssiz çağırışı*

Axşamlar burada yalnız külək danışır, kəndin sükutu insanı öz içinə çəkir: sakitlik içində unudulan, amma hələ də nəfəs alan kənd. Amma bu sakitlik əylislilər üçün rahatlıqdır. Kəndi sərhəddəki əsgər kimi hər tərəfdən qoruyan dağlar gecə ulduzlarını əks etdirir, quşlar səhər azanından əvvəl oxuyur.

...Yuxarı Əylis kimi kəndlər bizi yalnız keçmişimizlə tanış etmir, həm də gələcəyimizə sual verir: belə zəngin mədəniyyət irsini necə qoruyaq? Onları müasir dünyaya necə təqdim edək? Bu kəndlərin qorunması üçün təkcə muzeylərdə, tarixi abidələrin önündə lövhələr quraşdırmaq yox (halbuki yoxdur!), real investisiya, diqqət və maraq göstərmək lazımdır. Çünki tarixi abidələr səssiz ola bilər, amma onların susqunluğu özündə bütöv bir millətin yaddaşını daşıyır.

...Yuxarı Əylis kimi kəndlər Naxçıvan tarixinin arxivləri kimidir: səssiz, amma dərin, unudulmuş, müqəddəs. Hər daş, hər divar, hər sökülən divar keçmişdən gələcək üçün xəbər verir. Buranı qorumaq, tanıtmaq və yaşatmaq, sadəcə, vəzifə deyil, həm də vicdan işidir.

Yuxarı Əylisi seyr edərkən insanı düşüncəyə aparan bir fikir dolaşır başında: “Bu kəndin daşları danışa bilsəydi, bəlkə, dünya onları dinləməyə gələrdi”.

## DÜNYA xəbərləri

### BƏƏ dünyanın ən təhlükəsiz ölkəsi elan edilib

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) növbəti dəfə ən təhlükəsiz ölkələrin dünya reytinqində birinci yeri tutub. "Numbeo" platformasının "2025-ci ilin ortalarına olan "Ölkə təhlükəsizliyi indeksi" araşdırmasına görə, Əmirliklər 85,2 bal toplayıb. BƏƏ-dən sonra təhlükəsizlik baxımından ilk beşliyə Andorra, Qətər, Tayvan və Makao (Çin) daxil olub.

BƏƏ yüksək həyat keyfiyyəti, sabitliyi və təhlükəsizliyi ilə tanınır. 2025-ci ilin mart ayında ölkə həmin reytinqdə ikinci olub və yalnız Andorra onu üstələyib. Hazırkı siyahıda Fransa ilə İspaniya arasında yerləşən və xizək kurortları ilə məşhur olan Andorra 84,8 bal toplayıb. Üçüncü yerdə 84,6 balla Qətər qərarlaşıb. İlk beşliyi Tayvan və Makao tamamlayıb.

Siyahıda regionun digər ölkələri də təmsil olunub: Səudiyyə Ərəbistanı 14-cü, Bəhreyn 15-ci, Küveyt 38-ci, İordaniya isə 54-cü yerdədir. Asiya ölkələri arasında Pakistan 62-ci, Filippin və Hindistan isə müvafiq olaraq 66 və 67-ci yeri tutub. Siyahıda Böyük Britaniya 86-cı, ABŞ isə 91-ci yerdə qərarlaşıb.

### I Dünya müharibəsi zamanı batan gəmi 109 il sonra tapılıb

Şotlandiya sahillərindən, təxminən, 96 kilometr məsafədə, Şimal dənizində 109 il əvvəl batırılmış Britaniya Kral Donanmasına məxsus hərbi gəminin qalıqları aşkar edilib.

"HMS Nottingham" adlı 150 metrlik döyüş gəmisi 1916-cı il avqustun 19-da alman sualtı qayığı tərəfindən torpedolandıqdan sonra batmışdı. Hücum nəticəsində 38 heyət üzvü həlak olmuşdu.

Gəminin qalıqları beynəlxalq "ProjectXplore" komandası tərəfindən 82 metr dərinlikdə müəyyən edilib.

### İtaliyada həlak olmuş jurnalistlərin xatirəsinə Milli Gün təsis olunub

İtaliyada peşə fəaliyyətini yerinə yetirərkən həlak olmuş və ya öldürülən jurnalistlərin xatirəsinə Milli Gün təsis edilib.

İtaliya parlamenti bununla bağlı qanun qəbul edib. Qanuna əsasən mayın 3-ü ölkədə Jurnalistlərin Xatirəsi Milli Günü kimi qeyd olunacaq. İtaliyanın Baş naziri Ciorcia Meloni deyib ki, peşə fəaliyyətinə görə həlak olmuş jurnalistlərin xatirəsinin yad edilməsi üçün Milli Günün təsis olunması haqqında qanun layihəsinin parlamentdə yekdilliklə təsdiq edilməsini böyük məmnunluqla alqışlayıram.

"Bu gündən etibarən mayın 3-ü vətəndaşların məlumat almaq hüququnu təmin edərək, öz peşəkarlığını və cəsarətini hamımızın xidmətinə qoyanların şərəfləndirilməsi üçün təntənəli an olacaq. Jurnalistlərə hörmət etmək indi dövlət qanunlarında təsbit edilmiş bir vəzifədir və biz onu şərəfləndirməyə sadiqik", – deyə o bildirib.

# Günəşli Naxçıvanımızda keyfiyyətli günəbaxan da yetişdirilir

İlin bu çağlarında doğma Naxçıvanımız meyvəli bağları və gözoxşayan tarlaları ilə daha da gözəlləşir. Yalnız yay aylarının günəş işığında çiçək açan günəbaxanlar isə bu gözəlliyə əlavə çalarlar qatır. Öz rəngini günəşin zərrin şəfəqlərindən alan bu bitkilərə muxtar respublikanın hər bir kənd yaşayış məntəqəsində rast gəlmək olar.

Elə buna görə də bu dəfə yolumuzu Babək rayon Nəzərabad kəndinə salırıq. Günəşə doğru boylanan bu sarı çiçəklərin arasından keçərkən insan sanki minlərlə baxışın onu izlədiyini hiss edir. Kəndə daxil olan kimi hiss edirik ki, buradakı hər nəfəs torpaqla, zəhmətlə yoğrulub. Sakinlərin böyük əksəriyyəti təsərrüfatla məşğuldur. Tarladan bir qədər aralıda dayanıb onların işini seyr edirik. Günəbaxanların içindən bizə tərəf gülümsəyərək yaxınlaşan bir təsərrüfatçı ilə ayaqüstü söhbətimiz başlayır. Bu, tanınmış təsərrüfatçılardan olan və qonşu Didivar kəndində yaşayan Aydın dayıdır.

"İşiniz avand olsun!" – deyə salamlayırıq onu. Aydın Əliyev deyir ki, artıq iyirmi ildən artıqdır, əkib-becərməklə məşğuldur. Onun sözlərinə görə, günəbaxan əkini bu bölgədə geniş yayılmış təsərrüfat sahəsidir. "Günəbaxandan əldə olunan yağ süfrələrimizdə ən çox istifadə edilən qidalardandır. Bu bitkinin əkini və yetişdirilməsi zəhmət tələb edir. Amma nəticəsini görəndə hər zəhmətə dəyir", – deyir o. Aydın dayının sözlərinə görə, günəbaxan quraqlığa davamlı olsa da, suvarma imkanları məhsuldarlığa müsbət təsir edir: "Əgər su bol olarsa, tumlardakı yağın keyfiyyəti də artır. Çiçəkləmə dövründə isə tozlanma çox vacibdir. Günəbaxan yığımı, əsasən, avqustun ilk yarısında başlayır. O zaman bitkinin başı bağlanır və tumlar tam yetişir". Təsərrüfatçının sözlərinə görə, günəbaxan tumu təkcə dadlı çərəz deyil, həm də faydalı məhsuldur. Tumu minerallarla zəngindir. Yaddaş zəifliyinə, yüksək qan təzyiqinə qarşı faydalıdır, qan dövranını yaxşılaşdırır.

Onun gününün böyük hissəsi bu tarlalarda keçir: "Bu işə könüldən bağlanmaq lazımdır. Həm çalışmalı, həm də sahəni dərindən bilməlisən. Yalnız bu halda işin bərəkətli olar".

Günəbaxan yağı təkcə qida sənayesində deyil, həm də konservləşdirmə, qənnadı, marqarin istehsalı, eləcə də ətriyyat, toxuculuq və texniki sənaye sahələrində geniş istifadə edilir. Hazırda Nəzərabad ərazisində yerləşən 4 put əkin sahəsindən günəbaxan məhsulu əldə olunur. Yerli bazarda bu məhsula böyük tələbat var. Bu il də günəbaxan bolluğu təsərrüfatçıların üzünü güldürür. Çünki sahələrdə bol məhsul yetişib.

Bülbül RÖVŞƏNQIZI



## Növbəti "SuVar" ekoloji aksiyası keçirilib



İyulun 18-də Naxçıvan Muxtar Respublikasında "SuVar" ekoloji aksiyası növbəti dəfə təşkil olunub. Aksiya yaşıllıqların qorunması, ətraf mühitin mühafizəsinə ictimai dəstəyin gücləndirilməsi, ekoloji məsuliyyət hissinin artırılması və iqlim dəyişikliklərinə qarşı maarifləndirmə məqsədi daşıyıb.

Tədbir Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə gerçəkləşdirilib.

Aksiya zamanı iştirakçılara sudan səmərəli istifadə, suya qənaət və yaşıllıqların mühafizəsinin əhəmiyyəti barədə ətraflı məlumat verilib. İştirakçılar ətraf ərazilərdəki ağacları suvarmaqla yanaşı, sakinlərlə maarifləndirici söhbətlər aparıblar.

Ədliyyə və ekologiya qurumlarının əməkdaşları aksiya zamanı fəallıq göstərərək ağacların suvarılmasında və ictimaiyyətin məlumatlandırılmasında iştirak ediblər. Onlar vətəndaşlara su ehtiyatlarının qorunmasının vacibliyindən bəhs edərək ictimai dəstəyə çağırış ediblər.

Tədbir çərçivəsində "Tullantıları ekoçantaya dəyiş" adlı təşəbbüs də həyata keçirilib. Bu təşəbbüs tullantıların azaldılması və təkrar istifadənin təşviqi baxımından xüsusi diqqət çəkib.

## "Gənclərin yay düşərgəsi – 2025"ə start verilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş düşərgədə 50-yə yaxın gənc iştirak edir.

İyulun 24-ü düşərgə iştirakçıları Şərur şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini, o cümlədən Şəhidlər xiyabanını ziyarət edərək ehtiramlarını nümayiş etdiriblər.

Düşərgənin təşkil olunduğu Şərur Olimpiya İdman Kompleksində Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifələrini icra edən Məcid Seyidov çıxış edərək bildirib ki, ötən il olduğu kimi, bu il də gənclərin muxtar respublika və ölkə hüdudlarından kənarda təşkil olunan bir sıra düşərgə və ya proqramlarda iştirakı aktualdır. Artıq Quba rayonunda Azərbaycan-Gürcüstan "Gənclər həftəsi" çərçivəsində beynəlxalq düşərgə start götürüb, o cümlədən hər iki ölkədə daha iki düşərgə təşkil olunacaq. Bu tədbirlərə Naxçıvandan qatılacaq iştirakçı sayı, ümumilikdə, 34 olacaqdır.

Qeyd edək ki, iyulun 26-dək davam edəcək düşərgədə müxtəlif şəxsi inkişaf təlimləri, intellekt yarışları, əyləncəli idman oyunları, komanda təqdimatları və digər fəaliyyətlər təşkil olunacaq.

## Naxçıvanlı cüdoçu ACF kubokunun mükafatçısı olub



İyulun 19-da U-14 yeniyetmə cüdoçular arasında nevaza üzrə ACF kuboku keçirilib. Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzində baş tutan yarışda 29 klub və idman cəmiyyətindən olan 160 cüdoçu (135 oğlan, 25 qız), ümumilikdə, 15 çəki dərəcəsində medallar uğrunda mübarizə aparıb.

Naxçıvan Uşaq Gənclər İdman Məktəbindən İsmayıl Şükürlü yarışda uğurlu nəticəyə nail olub. İdmançı 55 kq çəki dərəcəsində bürünc medal qazanıb.

Xatırladaq ki, İsmayıl Şükürlü iyul ayında cüdo üzrə U-14 ölkə liqasında ikinci olmuşdu.

## İtmişdir

Babək rayonu, Badaşqan kənd sakini Gözəlov Əjdər Zahid oğlunun adına olan A-042055 nömrəli, 103013003042 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələrinin Assosiasiyası, Şəhər və Qəsəbə Bələdiyyələri Assosiasiyası fəaliyyətini dayandırdığından ləğv edilir.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, ev 19-da yaşayan Qasımova Nəzmirə Bilal qızının adına olan 104013002225-10301 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Badamlı kəndində yaşamış Babayev Eylaz İbrahim oğlunun adına olan JN-82$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Külüs kənd sakini Quliyev Fərqan Səttar oğlunun adına olan AD-0039356 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kəndində İsmayılov Elşad Məmməd oğluna məxsus JN-396$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Əliyeva Qətibə İbrahim qızının adına olan JN-119$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Əkbərov Vüsal Həbibulla oğlunun adına olan MM-0053310 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində yaşamış İsmayılov Rasim Hüseyn oğluna məxsus JN-996$^{A}$ nömrəli, 10600078 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kənd sakini Məmmədova Günay Rəsul qızının adına olan AA-002180 nömrəli, 103013004868 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Hüseynova Quba Məşəhəsən qızının adına verilmiş JN-37$^{A}$ və JN-37$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kənd sakini Məmmədova Zəminə Fərman qızının adına olan JN-0041 nömrəli, 10312048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Əsgərov Yadigar Cəlil oğlunun adına verilmiş JN-61 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kəndində yaşamış Seyidov Lətif Mirhəbib oğlunun adına verilmiş JN-73$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 199

Nömrəyə məsul: Ramiyə Əkbərova, Bülbül Quliyeva, Türkanə Əsədova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.